QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 123 (5843) **11 iyul** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: "Azərbaycanın iqtisadi inkişafı sürətlə gedir"

## *Prezident İlham Əliyev MEDEF-ə üzv olan şirkətlərin nümayəndələrini qəbul edib*



Səh 2

5

**Əli Əhmədov: "UNESKO-nun Azərbaycanla sıx əməkdaşlığı formalaşıb"**



5

**Bakıda Rusiya Ordusunun Baş Qərargah rəisi və NATO Ali komandanı arasında görüş keçirilib**



6

**"İordaniya-Azərbaycan əlaqələrində önəmli məqamlar" kitabı təqdim edildi**



# İlham Əliyev: "Azərbaycanın iqtisadi inkişafı sürətlə gedir"

*Prezident İlham Əliyev MEDEF-ə üzv olan şirkətlərin nümayəndələrini qəbul edib*



## Rəsmi xronika

Prezident İlham Əliyev Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqanı təbrik edib. Təbrikdə deyilir: "Hörmətli cənab Prezident, ölkənizin milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm. İnanıram ki, Azərbaycan-Monqolustan əlaqələri, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir. Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monqolustan xalqına daim sülh və rifah diləyirəm".

***

Prezident İlham Əliyev Mərahim Fərzəlibəyovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan teatr sənətinin inkişafında xidmətlərinə görə Mərahim Fərzəli oğlu Fərzəlibəyov "Şöhrət" ordeni ilə təltif edilsin.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin icrası haqqında qanunu təsdiqləyib.

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da Fransa Sahibkarlar Təşkilatına - MEDEF-ə üzv olan şirkətlərin nümayəndələrini qəbul edib. AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, Azərbaycanın iqtisadi inkişafı sürətlə gedir:***

-Mən MEDEF-dən belə böyük nümayəndə heyətini görməyə şadam. Bu, bizim əməkdaşlığımızın yaxşı nümunəsidir. Bilirsiniz ki, mən Parisdə və Bakıda MEDEF-in üzvləri ilə dəfələrlə görüşmüşəm. Üç il əvvəl böyük bir nümayəndə heyətinin səfərini xatırlayıram və indi müxtəlif şirkətlərin 40 nümayəndəsi ölkəmizdə səfərdədir. Bu, həqiqətən də tərəfdaşlığımızın çox yaxşı nümunəsidir. Bu, Azərbaycanda fəaliyyət göstərməyə böyük marağın olduğunu nümayiş etdirir. Sizin təmsil etdiyiniz bir çox şirkətlər ölkəmizdə müxtəlif layihələrdə artıq iştirak edir.



Azərbaycanın iqtisadi inkişafı sürətlə gedir. Hazırda biz əsasən iqtisadiyyatımızın şaxələndirilməsi üzərində işləyirik. Çünki, bu, əsas prioritetdir. Bu gün neft-qaz sektorundan asılılığın azaldılması bizim əsas vəzifəmizdir. Biz iqtisadiyyatımızın şaxələndirilməsi üçün əlimizdən gələni etməyə çalışırıq. Bu, asan deyil, lakin düşünürəm ki, biz yaxşı irəliləyişə nail olmuşuq.

Prezident İlham Əliyev bu ilin iqtisadi göstəricilərinə nəzər salaraq bildirdi ki, qeyri-enerji sektoru 3 faizdən çox artıb və kənd təsərrüfatında bu il rekord həcmdə, təxminən 13 faiz artım olub. Qeyri-enerji sənayesində isə artım təxminən 15 faiz təşkil edir. "Bu, onu göstərir ki, şaxələndirmə yaxşı nəticələr verir", - deyən dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, yerli və xarici şirkətlərin fəal iştirakı ilə Azərbaycan öz məqsədlərinə çatacaq. Prezident İlham Əliyev nümayəndə heyətinin Azərbaycanda bir çox görüşlər keçirəcəyini deyərək səfərin çox səmərəli keçəcəyinə ümidvar olduğunu bildirdi.

Sonra MEDEF Biznes Şurasının prezidenti Jofrua Ru de Beziö çıxış edib:

-Zati-aliləri, minnətdaram. Bizi burada qəbul etdiyinizə görə təşəkkür edirik. Burada olmaq bizim üçün böyük məmnuniyyət və şərəfdir. Şəxsən mən ilk dəfədir ki, Azərbaycanda, Bakıda səfərdəyəm. Məmnuniyyətlə qeyd etmək istərdim ki, bu, mənim Avropa İttifaqından kənara ilk səfərimdir. Mən ilk ölkə kimi Azərbaycanı seçmişəm. Bu da fransız biznes ictimaiyyətinin ölkəyə olan marağının göstəricisidir. Bildiyiniz kimi, MEDEF 170 min şirkətin üzv olduğu təşkilatdır. Bu gün mən böyük bir nümayəndə heyətinin tərkibindəyəm.

Jofrua Ru de Beziö nümayəndə heyətinə bank, tikinti, enerji, ətraf mühit, tədbirlərin təşkili, yeni texnologiya sahələrini təmsil edən şirkətlərin daxil olduğunu və onların 12 sektoru əhatə etdiyini bildirdi. "Bizim üçün bu şirkətləri dəstəkləmək və onları Azərbaycanın böyük potensialı olduğuna inandırmaq çox vacibdir", - deyən MEDEF Biznes Şurasının prezidenti nümayəndə heyətində qeyri-neft sektorunu təmsil edən şirkətlərin əksəriyyət təşkil etdiyini vurğuladı.

Fransanın Azərbaycandakı səfiri Orelia Buşez fransız şirkətləri ilə yüksək səviyyədə görüşə görə Prezident İlham Əliyevə təşəkkür etdi. O, fransız şirkətlərinin Azərbaycanda həvəslə fəaliyyət göstərdiklərini bildirdi. Prezident İlham Əliyevin çıxışlarında iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı söylədiyi fikirlərin diqqət doğurduğunu deyən Orelia Buşez Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı artıq nəticələrin göründüyünü və bunun burada təmsil olunan şirkətlərin fəaliyyət müxtəlifliyində də öz əksini tapdığını vurğuladı. Səfir fransız şirkətlərinin Azərbaycan iqtisadiyyatının inkişafına səmərəli töhfə verəcəyinə əminliyini bildirdi.

MEDEF-in beynəlxalq Fransa-Azərbaycan qrupunun rəhbəri, "SUEZ" qrupun baş direktorunun müavini xanım Mari-Anj Döbon bugünkü qəbula görə minnətdarlığını bildirərək "SUEZ" şirkətinin Azərbaycanda fəaliyyətinə verdiyi dəstəyə görə dövlətimizin başçısına təşəkkür etdi. Bir sıra yerli şirkət və agentliklərlə infrastrukturun təkmilləşdirilməsi ilə bağlı əməkdaşlıq etdiklərini deyən Mari-Anj Döbon ölkəmizdə bu sahədə görülən işlərin iqtisadi inkişaf baxımından, həm də vətəndaşların həyatı üçün önəmli olduğunu bildirdi, "SUEZ"in bu işlərə bundan sonra da töhfə verəcəyinə ümidvar olduğunu dedi. Mari-Anj Döbon ətraf mühitin qorunması sahəsində ölkəmizdə icra olunan layihələrə dəstək göstərməyə, bu sahədə infrastrukturun inkişafına töhfə verməyə hazır olduqlarını bildirdi.

Görüşdə enerji, nəqliyyat, kənd təsərrüfatı, bərpa olunan enerji, yüksək texnologiyalar və digər sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlər bütün sahələrdə uğurla inkişaf edir

*Prezident İlham Əliyev Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - Rusiya Müdafiə nazirinin birinci müavini ilə NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı arasında keçirilən görüşdə iştirak etmək üçün Bakıda səfərdə olan Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi və Rusiya Müdafiə nazirinin birinci müavini Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə beynəlxalq səviyyədə mühüm danışıqların mütəmadi olaraq Bakıda aparılmasının əhəmiyyəti qeyd edildi.

Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, hərbi və hərbi-texniki sahədə əməkdaşlığın genişlənməsindən məmnunluq ifadə olundu. Görüşdə hərbi və hərbi-texniki sahədə əlaqələrin inkişaf perspektivləri ilə bağlı məsələlər ətrafında müzakirələr aparıldı.



# "Beynəlxalq əhəmiyyətli mühüm görüşlərin Bakıda keçirilməsi önəmli hadisədir"

*Prezident İlham Əliyev NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanının başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı ilə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - Rusiya Müdafiə nazirinin birinci müavini arasında keçirilən görüşdə iştirak etmək üçün Bakıya gələn NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı Tod Voltersin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Bakıda beynəlxalq əhəmiyyətli mühüm görüşlərin keçirilməsindən məmnunluq ifadə olundu. Görüşdə Azərbaycan ilə NATO arasında əməkdaşlıq, ölkəmizin Əfqanıstanda "Qətiyyətli dəstək" missiyasına töhfəsi məsələləri müzakirə edildi.

# "Azərbaycan ilə Fransa arasında uğurlu əməkdaşlıq qurulub"

*Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva MEDEF Biznes Şurasının prezidenti ilə görüşüb*

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva iyulun 10-da Fransa Sahibkarlar Təşkilatı-MEDEF Biznes Şurasının prezidenti Jofrua Ru de Beziö ilə görüşüb.***

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransa Sahibkarlar Təşkilatı-MEDEF Biznes Şurasının prezidenti Jofrua Ru de Beziönü Azərbaycanda görməkdən şad olduğunu bildirdi. Mehriban Əliyeva Azərbaycan ilə Fransa arasında uğurlu əməkdaşlığın qurulduğunu qeyd etdi, bu əməkdaşlığın bir çox sahələri əhatə etdiyini diqqətə çatdırdı. Birinci vitse-prezident siyasi, iqtisadi, humanitar əlaqələrin əhəmiyyətindən danışaraq, bu münasibətlərin iki ölkə arasında əməkdaşlığın daha da inkişafına xidmət etdiyini bildirdi. Birinci vitse-prezident enerji sahəsindəki əməkdaşlığın uğurla davam etdirildiyini dedi, Fransa şirkətlərinin Azərbaycanda qeyri-neft sektorunda fəaliyyətlərinin genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğuladı.





MEDEF-in Biznes Şurasının prezidenti Jofrua Ru de Beziö Fransa müəssisələrinin 170-ə yaxın nümayəndəsinin ölkəmizə səfər etdiyini bildirdi, Azərbaycanda keçirdikləri görüşləri yüksək dəyərləndirdi, ölkələrimiz arasında mövcud əməkdaşlığın yüksək səviyyədə olduğunu dedi. Enerji sektorunda əldə edilən nailiyyətlərdən danışan qonaq Fransa şirkətlərinin qeyri-neft sahəsində - informasiya texnologiyaları, innovasiyalar, kənd təsərrüfatı, ətraf mühitin mühafizəsi, turizm kimi istiqamətlərdə əlaqələrin qurulmasında maraqlı olduqlarını diqqətə çatdırdı. Jofrua Ru de Beziö Fransa şirkətlərinin Azərbaycanda daha da fəal çalışmaları üçün ölkəmizdə bütün şəraitin mövcud olduğunu diqqətə çatdırdı.

Görüşdə bu ilin martında Mehriban Əliyevanın Fransaya səfərinin ikitərəfli əlaqələrin genişləndirilməsi baxımından əhəmiyyəti vurğulandı.



# Azərbaycanla Avropa İttifaqı arasında əlaqələr yeni mərhələdədir

***Azərbaycan dövlətinin xarici siyasətində dünya ölkələri və beynəlxalq təşkilatlarla əlaqələr əsas prioritet istiqamətlərdən biridir. Xüsusilə, beynəlxalq təşkilat kimi Avropa İttifaqı ilə bütün sahələrdə fəal əməkdaşlıq mövcuddur. Avropa İttifaqı ilə çoxşaxəli əməkdaşlıq Azərbaycanın xarici siyasət kursunun prioritetlərindən biri kimi müəyyənləşdirilmişdir. Bu gün Azərbaycan-Avropa İttifaqı əlaqələri yeni inkişaf mərhələsindədir.***

Bu əlaqələrin əsası 1993-cü ildə qoyulmuş və diplomatik münasibətlər son 16 ildə daha da inkişaf etdirilmiş, əlaqələr getdikcə möhkəmləndirilmişdir.1996-cı il aprelin 22-də Lüksemburqda Avropa İttifaqı və Azərbaycan Respublikası arasında ticarət, sərmayə, iqtisadiyyat, qanunvericilik, mədəniyyət, immiqrasiya və qeyri-qanuni ticarətin qarşısının alınması sahəsində əməkdaşlığı nəzərdə tutan "Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" imzalanmışdır. Böyük əhəmiyyət kəsb edən bu müqavilə Azərbaycanın Avropa strukturları və institutları ilə əlaqələrinin genişlənməsi, xüsusilə, inteqrasiya istiqamətində hüquqi baza rolunu oynayır.

2004-cü ildə Azərbaycan Avropa Qonşuluq Siyasətinə, 2009-cu ildə isə onun Şərq istiqaməti üzrə çoxtərəfli əməkdaşlıq formatı olan Şərq Tərəfdaşlığı Proqramına daxil edilmişdir. 2014-cü ildə tərəflər arasında Azərbaycanın Aİ proqramlarında və agentliklərində iştirakına dair Protokol imzalanmışdır.

2018-ci il iyulun 11-də Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış "Tərəfdaşlıq prioritetləri" adlı mühüm sənəd ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsində əhəmiyyətli rol oynadı. Bu sənədin imzalanması, bir daha göstərdi ki, Azərbaycan Avropa İttifaqı ilə bərabərhüquqlu və qarşılıqlı faydalı tərəfdaşlıq münasibətlərini daha da inkişaf etdirmək istəyir. 2019-cu il iyulun 9-da Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun Azərbaycan Respublikasına səfəri zamanı keçirilən görüşdə, Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, Avropa İttifaqı ilə Azərbaycan arasında qarşıdakı illərdə biz tərəfdaşlığın müsbət məcrada inkişafını davam etdirəcəyik ki, bu da, Azərbaycanın maraqlarına xidmət edir və uğurla həyata keçirdiyimiz bütün layihələr yaxşı nəticələr verəcək.

## "STATUS-KVONUN DƏYİŞMƏSİ AZƏRBAYCAN ƏRAZİLƏRİNİN İŞĞALDAN AZAD EDİLMƏSİNİN BAŞLANMASI DEMƏKDİR"

"Donald Tuskun bugünkü səfəri bir daha onu nümayiş etdirir ki, Avropa Komissiyası ilə Azərbaycan arasında əlaqələrin çox müsbət dinamikası var." Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev mətbuata bəyanatla çıxışı zamanı bildirib. Dövlət başçısı qeyd edib ki, görüş çərçivəsində ikitərəfli əməkdaşlığımıza dair geniş spektrli məsələlər, regional inkişaf və təhlükəsizlik məsələləri müzakirə olunub. Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinə daim böyük əhəmiyyət verdiyini vurğulayan Prezident İlham Əliyev çıxışında ötən il Avropa Komissiyası ilə Azərbaycan arasında "Tərəfdaşlıq prioritetləri" sənədinin qəbul olunduğunu bildirib. "Bunun çox mühüm sənəd olduğunu bildirən dövlət başçısı burada Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək ifadə olunduğunu vurğulayıb: "Bu gün Cənab Prezidentlə təkbətək görüşümüz zamanı mən ona Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyimiz barədə məlumat verdim. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən həll olunmalıdır. Uzun illərdir, ərazilərimiz erməni işğalı altındadır. Bir milyondan çox qaçqın və məcburi köçkün bu təcavüz və işğaldan əziyyət çəkir. Bizim qəti mövqeyimiz ondan ibarətdir ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Səylərimiz münaqişənin ən tez zamanda həllinə yönəlib. Münaqişənin indiyədək həll olunmamasının əsas səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyidir. Qeyd etməliyəm ki, beynəlxalq ictimaiyyətin və ATƏT-in Minsk Qrupunun səyləri münaqişənin ən tez zamanda həllinə yönəlməlidir. Status-kvo qəbuledilməzdir və dəyişməlidir. Status-kvonun dəyişməsi Azərbaycan ərazilərinin işğaldan azad edilməsinin başlanması deməkdir".

## "AZƏRBAYCANDA LOGİSTİKA VƏ NƏQLİYYAT SAHƏSİNƏ YATIRILAN İNVESTİSİYALAR BİZƏ MÜHÜM NƏQLİYYAT HABINA ÇEVRİLMƏK İMKANI VERİB"

Bu gün Azərbaycan-Aİ bir çox sahələrdə uğurlu əməkdaşlığı var. Azərbaycan Aİ-nin enerji sahəsində strateji tərəfdaşıdır. Azərbaycan, həmçinin, Xəzər dənizinin qaz resurslarının "Cənub Qaz Dəhlizi" vasitəsilə Aİ bazarına çatdırılmasında həlledici rol oynayır. 2006-cı ildə imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlıq üzrə Anlaşma Memorandumu müvafiq sahədə ikitərəfli əməkdaşlığın bünövrəsini qoymuşdur. Sözügedən Memorandum 4 əməkdaşlıq sahəsini müəyyənləşdirmişdir: qanunvericiliyin uyğunlaşdırılması, təchizat və tranzit sistemlərinin gücləndirilməsi, enerji səmərəliliyi, texniki əməkdaşlıq və təcrübə mübadiləsi. Azərbaycanın və Avropa İttifaqının bu sahələrdə çox konstruktiv əməkdaşlıq etdiyini və "Cənub Qaz Dəhlizi" layihəsinin uğurla həyata keçirildiyini deyən dövlətimizin başçısı "Bu gün biz, həmçinin, enerji təhlükəsizliyi, nəqliyyat sektoru ilə bağlı məsələləri müzakirə etdik" deyərək, Azərbaycan və Avropa İttifaqının bu sahələrdə çox konstruktiv əməkdaşlığı olduğunu vurğulayıb: "Cənub Qaz Dəhlizi" layihəsi uğurla həyata keçirilir. Nəqliyyat sektoruna gəlincə, Azərbaycanda logistika və nəqliyyat sahəsinə yatırılan investisiyalar bizə mühüm nəqliyyat habına çevrilmək imkanı verib. Şərq-Qərb və Şimal-Cənub dəhlizləri ölkəmizin ərazisindən keçir. Sözsüz ki, coğrafi mövqeyimiz üstünlük yaradır, lakin nəqliyyat sektoruna investisiyalar yatırılmasaydı, coğrafi mövqeyimiz o qədər də böyük məna kəsb etməzdi. Bu səbəbdən də, son illərdə bizim bu istiqamətdəki səylərimiz artıq yaxşı nəticələr verir, Azərbaycan mühüm tranzit ölkəyə çevrilir. Gələcəkdə bizim tranzit ölkə kimi rolumuz, sözsüz ki, artacaq".

Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk Azərbaycanın suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün Aİ tərəfindən dəstəkləndiyini bildirib: "Avropa İttifaqı və Azərbaycan hər il birbirinə yaxınlaşır. Münasibətlərimiz intensivləşib və mənim bugünkü səfərim buna aydın işarədir. 2018-ci ildə biz tərəfdaşlıq üzrə prioritetləri müəyyən etdik və Ümumi Aviasiya Məkanı üzrə Saziş, habelə, yeni Aİ-Azərbaycan sazişi üzrə danışıqlar yekunlaşmaq üzrədir. İqtisadiyyatlarımız bunlardan faydalanacaq və bizim siyasi, biznes və mədəni münasibətlərimiz dərinləşəcək. Əlbəttə ki, biz bizi, sözün həqiqi mənasında, birləşdirən "Cənub Qaz Dəhlizi"ni unutmamalıyıq".

Keçirilən görüşün əhəmiyyətinə nəzər salaraq, "Azərbaycan Prezidenti İlham Əliyevlə apardığım müzakirələrdə mən Azərbaycanla əməkdaşlığı daha da dərinləşdirmək üçün Avropa İttifaqının hazır olduğunu bir daha təsdiq etdim və eyni zamanda, bizim qanunun aliliyi, insan hüquqları və əsas azadlıqlara nə qədər böyük önəm verdiyimizi vurğuladım" deyib.

Onu da bildirib ki, regionda sabitliyə istinad edərək biz, həmçinin, həll olunmamış Dağlıq Qarabağ münaqişəsini də müzakirə etdik: "Bu münaqişə hərbi yolla yox, yalnız beynəlxalq hüququn prinsipləri əsasında siyasi yolla öz həllini tapmalıdır. Avropa İttifaqı Minsk Qrupu həmsədrlərinin səylərini və Helsinki Yekun Aktının əsas prinsipləri əsasında diqqətin münaqişənin ədalətli və davamlı həllinə yönəlməsini tamamilə dəstəkləyir".

Avropa İttifaqı və Azərbaycan arasında münasibətlər yüksələn xətlə inkişafdadır. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz sosial-iqtisadi inkişaf parametrlərinə görə, dünyada analoqu olmayan uğurlara imza atıb. Cəmiyyət həyatının bütün sahələri yenilənib və müasirləşib, əhalinin rifah halı müqayisəolunmaz dərəcədə yaxşılaşıb, sabitlik və təhlükəsizlik mühiti tam təmin edilib, respublikanın beynəlxalq nüfuzu daha da artıb. Azərbaycan Prezidenti İlham Əliyevin yaranan yeni çağırışlara və ölkənin reallıqlarına uyğun qəbul etdiyi mühüm qərarlar, layihələr və islahatlar diqqətdən kənarda qalmır. Azərbaycan böyük inkişaf yolundadır.

***Zümrüd BAYRAMOVA***

# Əli Əhmədov: "UNESKO-nun Azərbaycanla sıx əməkdaşlığı formalaşıb"



UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda keçirilməsi bir tərəfdən Azərbaycanın beynəlxalq aləmdə çox böyük nüfuza sahib olmasından, digər tərəfdən beynəlxalq tədbirlərin keçirilməsi sahəsindəki yüksək təcrübəsindən xəbər verir. Bunu Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədov "PREZİDENT. Müstəqillik. Təhlükəsizlik. Rifah" videolayihəsi çərçivəsində deyib.

Ə.Əhmədov bildirib ki, indiyə qədər Azərbaycanda keçirilən beynəlxalq tədbirlər ölkəmizin nüfuzunun əhəmiyyətli dərəcədə dəyişməsinə, yeniləşməsinə səbəb olub: "Azərbaycanda keçirilən bu tədbirlər ölkəmizə bütün dünya miqyasında olan diqqəti də artırıb. Digər tərəfdən, Azərbaycan UNESKO çərçivəsində böyük layihələrin həyata keçirilməsinə yaxından dəstək olur. Azərbaycanın Birinci vitse-prezidenti, hörmətli Mehriban xanım Əliyeva UNESKO çərçivəsində çox möhtəşəm layihələrin həyata keçirilməsində yaxından iştirak edir. Beləliklə də bu iştirakçılıq nəticəsində UNESKO-nun Azərbaycanla sıx əməkdaşlığı formalaşıb.

Bu əməkdaşlıq çərçivəsində Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycanın bir çox mədəni irs nümunələri UNESKO-nun siyahısına daxil edilib. Hesab edirəm ki, bu da Azərbaycanla UNESKO əməkdaşlığının ölkə mədəniyyəti üçün faydalı tərəflərindən biridir". Baş nazirin müavini vurğulayıb ki, çox sayda insanın Bakıda keçirilən 43-cü sessiyada iştirak etməsi onların Azərbaycanla tanış olmalarına, ölkəmizin bugünkü inkişafı ilə bağlı daha çox məlumatlar əldə etmələrinə və beləliklə də Azərbaycana olan münasibətlərinin bugünkü reallıqlar çərçivəsində formalaşmasına gətirib çıxarır.

# Mərhum professor Zahid Qaralovun 85 illik yubileyi qeyd edilib



İyulun 10-da Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatında partiyanın İdarə Heyətinin keçmiş üzvü, mərhum professor Zahid Qaralovun 85 illik yubileyi qeyd edilib. AZƏRTAC xəbər verir ki, partiya üzvləri və mərhumun ailə üzvləri əvvəlcə İkinci Fəxri xiyabanda Zahid Qaralovun məzarını ziyarət edib, önünə əklil və tər güllər qoyublar.

YAP Səbail rayon təşkilatı sədrinin müavini Muxtar Nağıyev görkəmli alim və ictimai-siyasi xadim Zahid Qaralovun həyat yolundan bəhs edib. Bildirib ki, respublikanın ictimai-siyasi həyatının fəal iştirakçısı olaraq Zahid Qaralov 1995-2005-ci illərdə iki çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilib. Tutduğu vəzifələrdən asılı olmayaraq, o, üzərinə düşən bütün işləri layiqincə yerinə yetirib, çalışdığı sahələrdə yüksək təşkilatçılıq bacarığı ilə seçilərək göstərilən etimadı daim doğruldub. Zahid Qaralov 1967-ci ildə namizədlik, 1994-cü ildə doktorluq dissertasiyalarını müdafiə edib və həmin ildə professor elmi adını alıb.



Vurğulanıb ki, Azərbaycanda pedaqogikanın inkişafında Zahid Qaralovun xidmətləri təqdirəlayiqdir. O, təhsil quruculuğu və məktəblilərin təlim-tərbiyəsi problemlərinə dair sanballı tədqiqatların müəllifi kimi tanınırdı. Alimin 200-dən çox elmi məqaləsi və 60-dan artıq monoqrafiyası, dərslik və dərs vəsaiti nəşr olunub. Azərbaycanda pedaqogika sahəsində elmi kadrların hazırlanmasında Zahid Qaralovun böyük əməyi var. Onun rəhbərliyi altında onlarla tədqiqatçı dissertasiya müdafiə edib. Alimin ölkəmizdə və onun hüdudlarından kənarda pedaqogikanın aktual problemlərinə həsr olunan müxtəlif elmi simpozium və konfranslardakı çıxışları mütəxəssislər tərəfindən yüksək dəyərləndirilib. Qeyd edilib ki, ömrü boyu əsl vətəndaşlıq mövqeyində dayanan Zahid Qaralov 1990-cı illərin əvvəllərində ölkədə baş verən mürəkkəb siyasi proseslərə münasibətdə milli mənafelərə sadiq qalaraq yüksək obyektivlik nümayiş etdirib. Zahid Qaralovun elmi və ictimai fəaliyyəti layiqincə qiymətləndirilib, o, bir sıra orden və medallarla, o cümlədən müstəqil Azərbaycan Respublikasının ali mükafatları olan "Şöhrət" və "Şərəf" ordenləri ilə təltif edilib.

# Bakıda Rusiya Ordusunun Baş Qərargah rəisi və NATO Ali komandanı arasında görüş keçirilib



Bakıda Rusiya Silahlı Qüvvələrin Baş Qərargah rəisi, ordu generalı Valeri Gerasimov və NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali komandanı, general Tod Uolters arasında görüş keçirilib.

RİA "Novosti" xəbər verir ki, bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb.

Tərəflər Rusiya ilə NATO məkanının təmas xətti boyu xoşagəlməz hadisələrin qarşısını almaq və ekspertlər səviyyəsində dialoq perspektivlərini müzakirə ediblər.

Bununla yanaşı, Avropada və dünyada təhlükəsizlik məsələlərinə, terrorçuluq və dəniz quldurluğu ilə mübarizəyə, Əfqanıstanda, Suriyada vəziyyətə dair fikir mübadiləsi aparıldığı bildirilir.

# "La Vanguardia": Donald Tusk Azərbaycanın suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün Aİ tərəfindən dəstəkləndiyini təsdiq edib

İspaniyada ən qədim mətbu orqan olan "La Vanguardia" qəzetində "Tusk Azərbaycanı və Ermənistanı sülh şəraitini bərpa etməyə çağırır" sərlövhəli məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalədə Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun Bakıda Azərbaycana və Ermənistana müraciətlə iki ölkə arasında səmərəli dialoqa və Dağlıq Qarabağda münaqişənin dinc yolla tənzimlənməsinə imkan verən şərait yaratmağa çağırması qeyd olunur.



Tusk pide a Azerbaiyán y a Armenia restaurar ambiente proclive a la paz

0

REDACCIÓN
09/07/2019 14:02

Bakú, 9 jul (EFE).- El presidente del Consejo Europeo, Donald Tusk, instó hoy a Azerbaiyán y a Armenia a crear un ambiente que conduzca a un diálogo productivo entre ambos países y a una resolución pacífica del conflicto en Nagorno Karabaj.

Más noticias

España Suma, por Enric Juliana

Qəzet yazır: "Azərbaycanın suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün Aİ tərəfindən dəstəkləndiyini təsdiq edən D.Tusk bildirib ki, o, münaqişə ilə bağlı gərginliyin azalmasını qiymətləndirir, lakin o, etiraf edib ki, bu yaxınlarda qoşunların təmas xəttində əsgərlərin həlak olması 28 ölkənin nümayəndələrini narahat edib".

Məqalədə bildirilir ki, Azərbaycan Prezidenti İlham Əliyevin bəyan etdiyi kimi, "bu münaqişə Azərbaycanın ərazi bütövlüyü və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında nizamlanmalıdır", status-kvo qəbuledilməzdir və Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına son qoyulmasını nəzərdə tutan dəyişiklik baş verməlidir. Azərbaycanın dövlət başçısı deyib: "Azərbaycanın səyləri münaqişənin ən qısa müddətdə nizamlanmasına yönəlib". Azərbaycan Prezidenti diqqətə çatdırıb ki, bir milyon insanın qaçqın vəziyyətinə düşməsinə gətirib çıxarmış münaqişənin hələ də nizamlanmamasının əsas səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyidir.

Məqalədə bildirilir ki, münaqişə tərəfləri arasında müxtəlif səviyyələrdə əlaqələr fəallaşıb. İspan qəzeti oxuculara Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi barədə məlumat verərək qeyd edir ki, Ermənistan qüvvələri Qarabağı öz nəzarəti altına alıb, Azərbaycanın geniş ərazilərini Ermənistanla birləşdirmək məqsədilə "təhlükəsizlik zolağı" adı ilə işğal edib. Yerevan israr edir ki, separatçı anklavın nümayəndələrinin danışıqlar prosesinə cəlb edilməsi zəruridir.

# Ermənistan rüşvətxorluq girdabında



Ermənistanın Kassasiya məhkəməsində korrupsiya hallarının üstü açılıb. SİA Ermənistana məxsus 1in.am saytının yayımladığı məlumata istinadən xəbər verir ki, Ermənistanın Milli Təhlükəsizlik Xidməti məhkəmə nümayəndəsinin iştirak etdiyi bir korrupsiya faktının üstünü açıb və bu barədə açıqlayıb. Milli Təhlükəsizlik Xidmətinin mətbuat mərkəzinin informasiyasına və ilkin məlumatlara görə, hüquqi xidmət göstərən keçmiş hüquqşünas, ictimai təşkilatın sədri mülki işdə Ermənistan vətəndaşının xeyrinə əlverişli məhkəmə aktının alınması üçün Ermənistan Kassasiya Məhkəməsinin rəisinə rüşvət verib. Bu fakt üzrə Ermənistan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən Milli Təhlükəsizlik Xidmətinin istintaq şöbəsində cinayət işi başlanılıb. İki nəfər nəzarətə alınıb.

Bir-birinin ardınca rüşvət faktlarının olması təsdiq edir ki, rüşvətxorluq Ermənistan üçün xarakterikdir və nə qədər pafosla çıxışlar etsə də bu halın qarşısını mövcud hakimiyyət almaqda acizdir. Nəricə isə onu deməyə əsas verir ki, Ermənistan rüşvətxorluq girdabında boğulur.

*İnam Hacıyev*

# İtaliya mətbuatı UNESKO-nun Bakı sessiyasından yazıb



İtaliyanın ANSA agentliyi Konelyano və Valdobbyadene bölgələrindəki Prosekko təpələrinin UNESKO-nun Bakıda təşkil edilmiş Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası zamanı dünya irsi elan olunmasından yazıb. AZƏRTAC xəbər verir ki, yazıda Prosekko təpələrinin tarixi və göstəriciləri haqqında məlumat verilir.

Bildirilir ki, ümumi ərazisi 97 kvadrat kilometr olan, üzüm bağları ilə örtülmüş yamaclar və Pyava çayının sol sahilində yerləşən kiçik şəhər Venetonun UNESKO-nun Ümumdünya İrs Siyahısına salınan sayca 8-ci, İtaliyanın isə 55-ci məkanı olub.

İtaliyanın Xarici İşlər naziri Enzo Moavero Milanezi və Veneto qubernatoru Luka Zaya bildiriblər ki, Prosekko təpələri nadir dəyərli məkan kimi təsdiq edilib. Diqqətə çatdırılıb ki, Prosekko təpələrinin siyahıya daxil edilməsi ilə İtaliya UNESKO-nun Ümumdünya İrs Siyahısında Çin, İspaniya və Fransa üzərində üstünlük qazanıb.

# “İordaniya-Azərbaycan əlaqələrində önəmli məqamlar” kitabı təqdim edildi

***Dünən Beynəlxalq Mətbuat Mərkəzində İslam Əməkdaşlıq Təşkilatlarına üzv Dövlətləri Jurnalistləri Assosiasiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə tərcümə etdiyi iordaniyalı tarixçi-yazar Ömər əl-Armutinin müəllifi olduğu “İordaniya-Azərbaycan əlaqələrində önəmli məqamlar” kitabın təqdimat mərasimi keçirilib.***






Təqdim olunan kitab haqqında ümumi məlumat verən “İRŞAD” İslam Araşdırmaları Mərkəzinin direktoru, fəlsəfə elmləri doktoru Rafiq Əliyev qeyd edib ki, bu artıq Ömər əl-Armutinin ikinci kitabıdır ki, Azərbaycan dilinə tərcümə olunaraq çap edilib: “Bu kitab Azərbaycan dövləti, onun Prezidenti İlham Əliyevin İslam dünyasında apardığı uğurlu siyasəti, müsəlman ölkələri, o cümlədən İordaniya ilə qurduğu sıx əməkdaşlıq və dostluq əlaqələrini özündə əks etdirir. İordaniya ilə Azərbaycanın siyasi, iqtisadi və strateji cəhətdən müəyyən oxşarlıqları var. İki ölkə arasında mədəni və siyasi əlaqələr yüksək səviyyədədir, həmçinin bu dövlətlər Dağlıq Qarabağ və digər məsələlərdə əməkdaşlıq edirlər”.

Tədbirdə çıxış edən Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin məsul əməkdaşı Bəhruz Həsənov bildirib ki, tək Azərbaycanda yox, ümumiyyətlə dünyada hər hansı bir kitabın çap olunması, işıq üzü görməsi əlamətdar və təqdirəlayiq hadisədir: “Hazırda Azərbaycan İslam dünyasında həmrəylik meyllərinin artması üçün ciddi səylər göstərir. Bunu nəzərə aldıqda, bu kimi kitabların əhəmiyyətinin bir daha şahidi ola bilərik. İordaniya Azərbaycan üçün əhəmiyyətli ölkədir. İki dövlət arasında diplomatik münasibətlərin yaranmasının 25 ili tamam oldu. Bu müddət ərzində İordaniya ilə Azərbaycan arasında münasibətlər yüksələn xətlə inkişaf edib. Əlbəttə, bu əlaqələrin müəyyən tarixi var. Bu tarixin əsasını da Ümummilli lider Heydər Əliyev və İordaniyanın sabiq prezidenti Hüseyn Bil Talal qoymuşdur. Qurulan əlaqələr hazırda cənab Prezident İlham Əliyev və İordaniyanın dövlət başçısı Kral II Abdulla tərəfindən uğurla davam etdirilir. Bu əlaqələr gələcəkdə də inkişaf etdiriləcək, davamlı olacaq. Ümid edirəm ki, növbəti illərdə də bu kimi kitablar nəşr ediləcək və İslam dövlətlərində yayılacaq”.

İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının sədri Fazil Abbasov layihənin məqsədlərindən danışıb. O, vurğulayıb ki, əsas məqsəd Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində yaranmış problemlərin ərəb ictimaiyyətinə çatdırmaqdan ibarətdir.

Tədbirdə çıxış edən “Kaspi” Təhsil Şirkətinin təsisçisi, filologiya elmləri doktoru Sona Vəliyeva bildirib ki, bu kitab həqiqətən Azərbaycana olan sonsuz sevginin təcəssümü kimi ərsəyə gəlib: “Bir dövlət haqqında bütövlükdə geniş məlumata malik olan xarici müəllif tərəfindən kitabın çap olunması həqiqətən bir bayramdır. Həmin dövlət haqqında yazılan məlumatın çatdırılması bayramıdır. Düşünürük ki, bu kitab Azərbaycan xalqı və onun keçdiyi tarixi inkişaf yolu, bu günü, həmçinin onun davamlı, dayanıqlı inkişafı, gələcək planları, daxili, eyni zamanda xarici siyasəti, tarixi və mədəniyyəti haqqında İordaniya xalqına geniş məlumat bəxş edir. Hər iki ölkə başçıları tərəfindən aparılan siyasət nəticəsində 2007-2010-cu illər ərzində qarşılıqlı olaraq 2 səfərin edilməsi və 40-a qədər sazişin imzalanması bu kitabda çox böyük məhəbbətlə yer alır. Üç fəsildən ibarət olan bu kitabda məni ən çox sevindirən məqam ondan ibarətdir ki, xalqın ən sadə nümayəndəsi belə qatılan tədbirlərin baş verməsidir. İordaniyada Azərbaycan mədəniyyət günləri böyük məhəbbət hissi ilə qarşılanıb. Bu mədəniyyət günlərinin qarşılıqlı şəkildə, mübadilə əsasında baş verməsi xalqların bir-birinin mədəniyyətlərini, eləcə də onların xarakterlərini, həmçinin bu ölkə haqqında ideoloji münasibətlərin inkişafına təkan verir. Hesab edirəm ki, bunların sayını artırmaq lazımdır. Cənab Ömər bəy 40-dan çox kitabın müəllifidir və tarixi, bədii mövzularda yazır. Onu İordaniya xalqı sevir, bundan sonra isə bütün Azərbaycan sevəcək və siz bu gündən etibarən Azərbaycanın dostuna çevrildiniz”.

Azərbaycan Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov ölkə jurnalistləri adından Ömər əl-Armutiyə təşəkkür etdi: “İslam Əməkdaşlıq Təşkilatlarına üzv Dövlətləri Jurnalistləri Assosiasiyası Azərbaycanın ərəb coğrafiyasında tanınması istiqamətində ciddi işlərə imza atır. Ərəb jurnalistlərinin Azərbaycana dəvət olunması və ölkəmizlə tanışlığı da bu qəbildəndir.”

Millət vəkili, tarixçi alim Musa Qasımlı iordaniyalı müəllif Ömər əl-Armutinin təkcə Azərbaycan-İordaniya əlaqələrinin müxtəlif sahələrinə deyil, həm də təhsilimizə böyük töhfə verdiyini bildirdi: “İndi və gələcəkdə onun hər iki kitabından Azərbaycanda tələbələr, tədqiqatçılar istifadə edə biləcəklər”.

Sonda çıxış edən müəllif Ömər əl-Armuti kitabın Azərbaycan dilinə tərcüməsinə və tədbirin təşkilinə görə təşəkkür etdi: “Azərbaycan haqqında deyəcəklərimi hər iki kitabımda demişəm. Bu mənim Bakıda 4-cü səfərimdir. Paytaxtınız məni əsrarəngiz gözəlliyi və əhalisinin qonaqpərvərliyi ilə özünə valeh edib. Hər gəlişimdə aparılan yeniliklərin şahidi oluram”.



# “Azərbaycançılıq ideologiyası və İslam” mövzusunda konfrans keçirilib

İyulun 10-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin birgə təşkilatçılığı ilə “Azərbaycançılıq ideologiyası və İslam” mövzusunda konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, konfransda DQİDK-nin rəhbərliyi, Milli Məclisin deputatları, Yeni Azərbaycan Partiyasının fəalları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, İslam dini-mənəvi dəyərlərinin çoxmillətli və çoxkonfessiyalı Azərbaycan xalqının mədəniyyətinə, mənəviyyatına, həyat tərzinə göstərdiyi təsirlərdən danışıb, azərbaycançılıq ideologiyasının formalaşması prosesində İslam dininin mühüm rol oynadığını deyib.

Komitə sədri vurğulayıb ki, azərbaycançılıq ideologiyası dövlətimiz üçün prioritetdir. Azərbaycançılıq bütün dünya azərbaycanlılarını bu ideya altında birləşdirir. İslami dəyərlər də, mənsub olduğumuz İslam dini də xalqımızın ideoloji xəttinə uyğundur. Azərbaycançılıq ideologiyası bütün islami dəyərləri özündə ehtiva edir. Otuz il əvvəl Azərbaycanda nə “multikultural”, nə də “tolerant” sözü işlədilirdi. Amma o zaman da Azərbaycanda multikultural dəyərlər, tolerant mühit var idi.

Sonra ulu öndər Heydər Əliyevin banisi olduğu azərbaycançılıq ideologiyasından bəhs edən film nümayiş etdirilib.

“Yeni Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu çıxış edərək bildirib ki, Heydər Əliyev istər sovet, istərsə də müstəqillik dövründə Azərbaycan cəmiyyətinə yeni dəyərlər təqdim etməyi, dövlətinin inkişafını təmin edən siyasət həyata keçirməyi bacaran bir lider olub. Heydər Əliyev Azərbaycanda dəyərlər yarada-yarada özü bir dəyərə çevrilib.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, fəlsəfə elmləri doktoru Könül Bünyadzadə, Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini Salman Musayev Azərbaycanın dünyada islami prinsiplərdən istifadə etməklə çox mötəbər dialoqlar apardığını vurğulayıblar. Bildirilib ki, Azərbaycan bu gün İslama sahib çıxır, bütün din sahibləri ilə dialoqa girə bilir. Buna görə də Azərbaycanda çox gözəl tolerant mühit var.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov isə qeyd edib ki, sovet dövründə azərbaycançılıq anlayışı daha çox etnik anlayış kimi qəbul edilirdi. Amma ümummilli lider Heydər Əliyevin təqdim etdiyi azərbaycançılıq ideologiyası birləşdirici dəyərləri özündə ehtiva edir. Bu ideya mütləq şəkildə gələcək nəsillərə ötürülməlidir. Orta və ali məktəblərdə bu məsələyə kifayət qədər elmi yanaşmanın olması vacibdir. Tədbir digər çıxışçılarla davam edib.

# “Azərbaycandakı sabitlik dünya ölkələri üçün bir nümunə etalonuna çevrilib”

“Ümumiyyətlə, Azərbaycan yalnız bu kimi mühüm görüşlər xarakterində deyil, eyni zamanda digər qlobal məsələləri əhatə edən danışıqların aparılması üçün ən mükəmməl və ənənəvi məkandır”. Sözügedən fikirləri Olaylar.az-a SƏS” qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun Bakıda NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı Tod Uolters ilə danışıqlar aparmasını şərh edərkən deyib.

Onun sözlərinə görə, bütövlükdə ölkəmizin belə bir görüşlər kontekstindəki yeri və rolu bir sıra əhəmiyyətli aspektlərə söykənir:



“Diqqət yetirsək görərik ki, Azərbaycan Avropanın, eləcə də dünyanın enerji təhlükəsizliyində, təminatında çox önəmli yer tutur, ölkəmizin bilavasitə təşəbbüsü ilə istər enerji, istərsə də nəqliyyat dəhlizləri layihələri reallaşdırılır, həmin istiqamətdə davamlı işlər aparılır, yeni ideyalar irəli sürülür. Bütün bunların sırf təməli ilk növbədə sabitliyin göstəricisi olaraq qiymətləndirilməlidir. Çünki sabitlik olmasa, hətta ən zəngin dövlət belə bir tədbirlərin həyata keçirilməsində uğur əldə edə bilməz. Ona görə də, xüsusilə vurğulamaq istərdim ki, ölkəmizin qeyd edilən faktorlar baxımından yeri və rolu ən yüksək səviyyədədir, Azərbaycanın statusu bu istiqamətdə öz möhkəmliyini daha da artırıb”.

“Nəzərə alarsaq ki, Azərbaycan nə NATO-nun, nə KTMT-nin, nə də digər hərbi alyansların üzvü deyil, bu zaman əminliklə deyə bilərik ki, iki nəhəng hərbi struktur təmsilçilərinin danışıqlar məkanı olaraq, növbəti dəfə də ölkəmizi seçmələri xalqımıza, dövlətimizə qarşı göstərilən inam və etibarın, hörmətin təcəssümüdür”, deyə qeyd edən siyasi ekspert əlavə edib ki, dünyanın bütün mərkəzlərini birləşdirən orta xəttin Azərbaycandan keçməsi heç də əbəs deyil: “Bu gün ölkəmizin Şərqlə Qərb arasında körpü rolunu oynaması barədə deyilən fikirlər həm məntiqi, həm də reallıq cəhətindən isbatlanıb və bu dəfə sözügedən növbəti, ənənəvi görüş əsnasında. Artıq Azərbaycandakı sabitlik dünya ölkələri üçün bir nümunə etalonuna çevrilib. Ona görə də həm NATO, həm Rusiya Azərbaycan etibar edir və danışıqların aparılması üçün də məkan olaraq həmişə Azərbaycanı seçirlər. Mən xatırlatmaq istərdim ki, Azərbaycan eyni zamanda ikitərəfli, üçtərəfli və çoxtərəfli görüşlər üçün də mükəmməl siyasi arena olaraq tanınır və bunun daha bir səbəbi Bakının dünya siyasətində sülhpərvərlik carçısı, çağırışçısı olmasıdır. Ona görə də paytaxtımızın dialoq məkanı olaraq qəbul edilməsi bütövlükdə Azərbaycanın beynəlxalq imicinə stimul verir, nüfuzunu daha da artırır”.

# Oğuzda YAP-ın "Gənc liderlər üçün yay məktəbləri" uğurla davam edir

***Oğuzda Yeni Azərbaycan Partiyasının "Gənc liderlər üçün yay məktəbləri" uğurla davam edir. Partiyanın gəncləri layihənin növbəti günündə Oğuz şəhərinin mərkəzində Umummilli Liderimiz Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüb, dahi şəxsiyyətin xatirəsinə böyük ehtiramlarını bildiriblər.***







Daha sonra Milli Məclsin deputatı Kamilə Əliyeva gənclərlə görüşüb. K.Əliyeva bildirib ki, hər bir ölkədə gənclər cəmiyyətin aparıcı qüvvəsidir. Bu mənada Azərbaycanda da gənclər cəmiyyətin bütün həyatında aktiv iştirak edirlər. Onun sözlərinə görə, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin başlıca məqsədi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin etməkdir: "Ulu Öndər Heydər Əliyev Azərbaycan gəncliyinə hər zaman qayğı ilə yanaşırdı. Öz növbəsində, Azərbaycan gəncliyi də Heydər Əliyev ideyalarına daim sadiqlik nümayiş etdirir.

Bu gün də Azərbaycanda gənclər siyasəti uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayırlar. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının aktiv fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsi Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini artırıb. Gənclərimiz iştirak etdikləri beynəlxalq olimpiadalarda və idman yarışlarında yeni-yeni qələbələrlə ölkəmizin şərəfini ucaldıblar".

Millət vəkili qeyd edib ki, Azərbaycanda gəncliyin inkişafı ilə bağlı Dövlət proqramları həyata keçirilir. Bu proqramlar Azərbaycan gəncliyinin inkişafına böyük töhfələr verir. "Təbii ki, bütün bunlarda məqsəd gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında fəal iştirakını təmin etməkdir. Hesab edirəm ki, gənclər öz fəaliyyəti ilə dövlətin göstərdiyi etimadı doğrultmalıdırlar"-deyən, K.Əliyeva Yeni Azərbaycan Partiyasının da gənclər üçün reallaşdırdığı layihələrin əhəmiyyətini vurğulayıb. Millət vəkili, həmçinin ölkəmizdə gənclər siyasəti ilə bağlı mükəmməl qanunvericilik bazasının yaradıldığını diqqətə çatdırıb.

Görüşdə, K.Əliyeva gəncləri maraqlandıran sualları da cavablandırıb. Sonra "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzinin rəhbəri Təranə Məmmədova liderlik kursu çərçivəsində gənclərə özünüidarəetmə və özünütərbiyə mövzularında təlim keçib. Bu təlim də gənclərdə böyük maraqla qarşılanıb.

Yay məktəbində gün ərzində həmçinin iştirakçı gənclərə Yeni Azərbaycan Partiyasının ideoloji istiqamətləri, partiyanın gənclər siyasəti haqqında məlumat verilib. Eləcə də, Oğuz şəhərində gəzinti, muzeylərlə, qədim alban kilsəsi, bu ərazidə yaşayan azsaylı xalqların mədəniyyəti ilə ilə tanışlıq baş tutub. Yay məktəbinin iştirakçıları arasında interaktiv oyunlar da keçirilib. Günün sonunda isə əyləncəli şou-proqram təşkil edilib.

# YAP Gənclər Birliyinin Lerik rayonunun "Relax" istirahət mərkəzində təşkil etdiyi "Yay məktəbi"ndə MM-in deputatları ilə görüş keçirilib

***Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin təşkil etdiyi "Yay məktəbi" layihəsi öz işini uğurla davam etdirir. Hər il olduğu kimi, bu il də "Yay məktəbi" ölkəmizin gözəl guşələrində olan Lerik rayonundakı "Relax" istirahət mərkəzində təşkil olunur.***







İstirahət mərkəzində beş gün müddətində YAP-çı gənc fəallar Milli Məclisin bir neçə deputatının iştirakı ilə müxtəlif mövzularda seminar keçir, fikir mübadiləsi aparırlar. Dünən keçirilən seminarda Milli Məclisin deputatları Hadi Rəcəbli, İqbal Məmmədov və Pərvin Kərimzadə iştirak ediblər.



Çıxış edən deputatlar layihənin əhəmiyyətindən, gənclərin bilik və bacarıqlarının artırılmasında rolundan geniş bəhs ediblər. Bildiriblər ki, YAP rəhbərliyi gənclərin siyasi fəallığının artırılması, asudə vaxtlarının səmərəli təşkili, beynəlxalq əlaqələrin genişlənməsi, ümumiyyətlə, ayrı-ayrı sahələr üzrə müxtəlif layihələrin həyata keçirilməsinə xüsusi diqqət yetirir. Qeyd edilib ki, layihələrin əsas məqsədi Azərbaycan ərazisində yaşayan bütün gənclərin bir-birini daha yaxından tanımasını, onların arasında səmimi münasibətlərin yaradılmasını, ölkədə ictimai həyatın istənilən sahəsində dinamik inkişaf haqqında onlara dolğun məlumatların çatdırılmasını, tanınmış siyasətçilərlə onların görüşlərinin təşkil edilməsini, gələcəkdə müxtəlif sahələrdə çalışacaq bu gənclərdə liderlik kimi mühüm xüsusiyyətlərin formalaşdırılmasını təmin etməkdir.

# Azərbaycanda "PostPay" elektron pul kisəsi istifadəyə veriləcək




Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin iki qurumu - "Azərpoçt" MMC və Məlumat Hesablama Mərkəzi (MHM) birgə "PostPay" elektron pul kisəsi layihəsinə imza atıb. MHM-dən AZƏRTAC-a bildirilib ki, tərəflər arasında imzalanmış müqavilədə "PostPay" elektron ödəniş sisteminin, o cümlədən elektron pul kisəsinin hazırlanması, fiziki və virtual daşıyıcılara yerləşdirilməsi, təhlükəsizlik tədbirlərinin görülməsi, həmçinin sonrakı mərhələdə texniki dəstəyin göstərilməsi məsələləri razılaşdırılıb. Geniş fəaliyyət istiqamətləri və böyük təcrübəyə malik 2 qurumun bu layihəsi vətəndaşlara bir çox xidmətləri daha əlçatan edəcək.

"PostPay"in digər elektron pul kisələrindən əsas fərqi poçt filialları və məntəqələrində həm balans artırma, həm də nağdlaşdırma əməliyyatlarından istifadəyə imkan yaratmasıdır. Vətəndaşlar kommunal, mobil və digər xidmət haqlarının ödənilməsi imkanından əlavə "PostPay" vasitəsilə heç yerə getmədən ucqar kəndlərə belə pul göndərmək imkanı əldə edəcəklər.

"PostPay"də istifadəçilərin rahatlığı, həmçinin müasir ödəmə funksiyalarından istifadənin təmin edilməsi məqsədilə QR kodla ödəmə imkanı təqdim ediləcək. Belə ki, mağazalarda və ya xarici internet saytlarında alış-veriş edən "PostPay" istifadəçiləri tətbiqin "QR kod vasitəsilə ödəmə" funksiyasını seçərək ödəmələrini asanlıqla həyata keçirə biləcəklər. İlk olaraq "PostPay" elektron pul kisəsi "Android" əməliyyat sistemi ilə çalışan qurğulara uyğunlaşdırılacaq. Yaxın gələcəkdə digər əməliyyat sistemləri ilə işləyən qurğu sahibləri "PostPay"dən faydalana biləcəklər.




MƏTLƏB
Metlebsalahov@mail.ru

## Kim Gürcüstanı Putinin "dar ağacı"na sürükləyir?

***Son günlərdə qonşu Gürcüstanı "əcəl girlədiyi" barədə keçən yazımdakı təşvişim, hal-hazırda gözlədiyimdən də, daha təhlükəli şəkildə reallaşır. Deyəsən, budəfəki Rusiya-Gürcüstan gərginliyi, 2008-ci ildəki hadisələri belə arxada qoyacaq qədər təhlükəli ssenari üzrə hərəkət edir. Bu yerdə Rüstəm Behrudinin "Salam, dar ağacı" şeiri yadıma düşdü. Açıq şəkildə görünən odur ki, kimlərsə qonşu Gürcüstanı da Vladimir Putinin "dar ağacı"na sürükləyir. Özü də ən alçaq bir təxribat proqramı ilə!***

Əgər 11 il bundan əvvəl Gürcüstan öz ərazisinə girmək üçün Moskvanın qoyduğu "qırmızı cizgini" tapdalayıb hərəkət etdisə, bu dəfə sarsaq və təxrubatçı bir "jurnalist"in insan övladına yaraşmayan təhqirləri ilə rus çəkməsi qisas və əsəb dolu enerji ilə Qafqaza yönəlib. Sanki kimlərsə qəsdli şəkildə rus əsgərlərini Tbilisiyə çəkmək istəyirlər. Bu gün qonşu Gürcüstan, açıqdan-açığa, Moskvanın nəticələri çox sonralar işə düşəcək olduqca sərt cəza zərbəsinin hədəfinə çevrildi. "Rustavi-2" telekanalının əməkdaşı, heç bir etikaya sığmayan bir tərzdə V.Putinin dünyadan köçən valideynləri barədə, nəinki bir qafqazlıya, hətta adi bir insan övladına yaraşmayan əxlaqsızlıqla təhqir və söyüş dolu fikirlər səsləndirdi. Hədəf olduqca təhlükəli seçilib: V.Putinin dünyadan köçən valideynlərini təhqir etmək və şəxsi hissləri cilovlanmaz vəziyyətə gətirib, Moskvanın Gürcüstanı sərt şəkildə cəzalandırmasına yol açmaq. Belə görünür ki, Qafqazda rus çəkməsi üçün sino gedənlər, daha aqressiv şəkil alırlar. Sözsüz ki, buralarda rus güllləsi ilə gürcü qanı töküb, Rusiyaya qarşı düşmənçiliyi qızışdırmaq üçün...

Küçədəki dilənçidən tutmuş ölkələri idarə edən prezidentlərə qədər, içində vicdan və hissiyyatı olan istənilən normal insan üçün valideynləri, xüsusi ilə dünyadan köçən valideynləri olduqca həssas, ehtirama layiq bir yerə sahibdir. Bu cümlələri oxuyan hər kəs, anındaca, mənimlə razılaşdığını ürəyinin dərinliyindəcə təsdiq edər. Bu, mübahisəsiz belədir. V.Putinin də bu axmaq "jurnalist"in hədyanlarından sonra daxilən hansı hisslər keçirdiyini təxmin etmək də çətin iş deyil. Amma V.Putin bu gədanı cəzalandırmaq üçün nə Gürcüstana sanksiya tətbiq etdi, nə də başqa cəza yolu seçdi. "Mən o yaramazı şərəfləndirə bilmərəm" dedi sadəcə.

Kremlin balacaboy sahibi, açıqdan-açığa, xırda və həm də həddən artıq çirkli oyunlarla tələyə düşməyəcəyini, ən həssas nöqtədən vurulmasına baxmayaraq, Rusiya kimi nəhəngin sükanı arxasında boş yerə əyləşmədiyini hər kəsə göstərmiş oldu. Dünyadan köçən valideynlərinin bir axmaq və təxribatçının dilindən təhqir olunmasına baxmayaraq belə!

Bu təxribatın ssenarisini yazanlar, çox gözəl bilirdilər ki, V.Putin bu ucuz və əxlaqsız təxribatın güdazına getməyəcək, bu bədnam "jurnalist"in qulağından yapışıb onu Moskvaya aparmayacaq, Ramzan Kadırovun hər gün insan əti ilə qidalanan vəhşi pələnglərinə yem etməyəcək. Çünki V.Putini bir kənara qoyaq, heç Afrika cəngəlliklərindəki yarımvəhşi qəbilə başçıları belə bu cür ucuz və cılız təxribatlara uymazlar.

Bu işi görənlər üçün əsas məqsəd anti-Rusiya nifrətini V.Putinin şəxsində alovlandırmaq, artıq Rusiyanı deyil, Kreml sahibini təhqir hədəfinə çevirib, Gürcüstandakı ictimai rəyi buna alışdırmaq, adət halına gətirmək və Rusiya əleyhinə qonşu Gürcüstanda daimi nifrət toxumu yaratmaq. Rusiya əleyhinə siyasi oyunları Ukrayna cəbhəsindən Qafqaza sürüşdürmək. Alındımı? Çətin sualdır. Ancaq bütün gürcülər də, əla anlayırlar ki, artıq bu təxribatlar Rusiya əleyhinə olan düşmənçilik deyil. Elə Gürcüstanın özünü, tarixi mənada, Moskva məzarlığına sürükləmək işidir.

Qərbdəki lokal təxribat qrupları yenə iş başındadır. Artıq keçmiş sovet ailəsinin üzvlərini "böyük qardaş"a qarşı "demokratiya" şüarı ilə ayağa qaldırmırlar. Çünki yalançı "demokratiya oyunu" çoxdan maskasını və dəyərini itirib. İndi, açıqdan-açığa, Moskvaya qarşı nifrət ideologiyası işə salınıb. Bu torpaqlarda rus düşmənçiliyi ən ağlasığmaz təxribatlarla "relsə" salınır. Bu, Gürcüstanın kəlləsini rus baltasının altına atmaqdır. Moskva isə, heç kimin göz yaşlarına inanmır. Qərbdəkilərin məsumları qatillərin güdazına verdiyi kimi!

# Ermənistan geosiyasi proseslərin burulğanında

## Özünə qəbir qazan cəmiyyət və ona qənim kəsilən Serj Sarkisyanın dublikatı Paşinyan

***Bu, bir reallıqdır ki, Ermənistanın nə ağıllı bir rəhbəri olub, nə də düzgün xarici siyasəti. Məhz bunun nəticəsidir ki, bu ölkə fəlakətlər burulğanından çıxa bilmir və bilməyəcək də. Yanlış xarici siyasətinin bu ölkəni daha böyük fəlakətlərə düçar etməsi fonunda vaxtilə sabiq prezident Serj Sarkisyan iqtidarına qarşı sərgilənən narazılıq bu gün işğalçı ölkənin baş naziri Nikol Paşinyana qarşı durmadan artır.***



Bəli, Sarkisyan hakimiyyəti dövründə olduğu kimi, bu gün də, Ermənistan cəmiyyət olaraq, tənəzzüldədir. Ölkəni insanlar tərk edir, iqtisadi böhran dərinləşir. Bunların fonunda N.Paşinyanın verdiyi vədlərinin puç olduğu aydın görünür. Çətin durumda olan Paşinyanın hakimiyyət kürsüsü uğrunda hərisliklə mübarizə aparması, təbii ki, vətəndaşları qıcıqlandırır.








Lakin bir məqamı da vurğulamaq lazımdır ki, bu gün də beynəlxalq aləmdə Ermənistanın düşdüyü vəziyyət daha acınacaqlıdır. Nikol Paşinyan, sözün həqiqi mənasında, geosiyasi burulğanda çabalayır. Daha dəqiq desək, pərdə arxasından onun ipini kim hansı istiqamətə çəkirsə, ona uyğun mövqe tutur. Yəni, ABŞ və Rusiya bu kuklanı daha tez-tez oynadırlar.

Küçə "demokratı" Nikol Paşinyan yenə də cəfəng fikirlər söyləyir, xarici siyasətdən bixəbər olduğunu aydın göstərir. Səbəbi məlumdur. Çünki artıq az bir müddət ərzində, Nikol Ermənistan daxilində itirdiyi nüfuzunu Dağlıq Qarabağ münaqişəsi ətrafında absurd fikirlər söyləməklə, bərpa etməyə çalışır. Qlobal geosiyasətdə cərəyan edən proseslərin fonunda Ermənistanın baş naziri Paşinyanın bu cəhdləri əsassız və gülünc görünür.

Ümumiyyətlə, N.Paşinyanı çətin vəziyyətə salan əsas məqam Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu, durmadan artırmasıdır. Bakı regionla bağlı çox perspektivli sosial-iqtisadi və mədəni proqramlar həyata keçirir. Təcrübə göstərir ki, Azərbaycanın yeritdiyi regional siyasət, digər bölgə dövlətlərindən daha səmərəlidir. Gürcüstanın yeni rəhbərliyinin son vaxtlar atdığı addımlar fonunda bu məqam daha aydın görünür.

Ermənistan isə, bu kontekstdə, olduqca pis vəziyyətdədir. Heç bir regional layihə təklif edə bilməyən rəsmi Yerevan, qonşulara böhtan atmaqdan başqa bir iş bilmir. Onun özünü təcrid etməsi, ölkəni tamamilə çıxılmaz geosiyasi vəziyyətə salıb.

### Ermənistan iqtisadiyyatı ötən əsrin 80-ci illəri səviyyəsindədir

Düşmən ölkənin "Joxovurd" qəzetinin, iqtisadçı Vaan Xaçaturyanın statistik fikirləri əsasında hazırladığı məqalədə qeyd olunur ki, Ermənistanla qonşu ölkələr arasında ticarət dövriyyəsi olduqca kiçikdir. Belə ki, qəzetin iddiasına görə, bu ilin 7 ayı ərzində, ölkədən ixrac edilən malların həcmi 10 faiz olub. Bu isə, ötən ilin eyni dövrü ilə müqayisədə, xeyli aşağı göstəricidir. Ermənistan Milli Statistika Xidmətinin məlumatına görə, yanvar-iyul ayları ərzində, Gürcüstana ixrac edilən mallar ümumi ixracın 5,9, İrana ixrac edilən mallar 6,5, Türkiyəyə ixrac edilən mallar isə cəmi 0,1 faiz təşkil edib. İxracın da əsas hissəsi mədən-xammal materiallarından, bahalı və bahalı olmayan metallar və daşlardan ibarətdir. Bunun isə, əsas səbəbinin konfliktlərin olduğunu vurğulayan Xaçaturyan, hesab edir ki, əgər Azərbaycanla münaqişə həll olunsaydı, Azərbaycan və Türkiyə ilə sərhədlər açıq olsaydı, dəmiryolu, tranzit fəaliyyət göstərsəydi, tam başqa mənzərə hökm sürərdi. O, həmçinin, ölkəsinin rəqabətə davamlı olmayan məhsullar istehsal etdiyini də, xüsusi olaraq, vurğulayıb. Xaçaturyanın sözlərinə görə, Ermənistan iqtisadiyyatı ötən əsrin 80-ci illəri səviyyəsində qalıb və heç bir sahədə inkişaf etməyib.

### Musa Qasımlı: "Ermənistanda gedən proseslər bütün erməniləri düşündürməlidir"

AMEA Dünya Siyasəti İnstitutunun direktoru, millət vəkili, professor Musa Qasımlı Ermənistanda vəziyyətin daha da kəskinləşəcəyini bildirib: "Hər şeydən əvvəl, elektrik enerjisi qiymətlərinin artırılmasına etiraz yalnız bəhanə və ya görünən tərəfdir. Əslində, etiraz aksiyaları Ermənistanda ümumi böhranın - sosial, siyasi, iqtisadi və mənəvi-psixoloji böhranın tərkib hissəsidir. Bu hadisələr göstərir ki, Ermənistan enerji təhlükəsizliyini təmin edə bilməyən, xaricdən asılı olan, müstəmləkə sisteminin çoxdan dağılmasına baxmayaraq, yeni müstəmləkəçilik siyasətinin altında olan bir ərazidir, deməli, 1991-ci ildə müstəqilliyini elan etsə də, Ermənistan dövlətçiliyi baş tutmayıb."

M.Qasımlı hesab edir ki, ermənilərin mənəvi-psixoloji böhranı dərin-

# Ermənistan geosiyasi proseslərin burulğanında

## Özünə qəbir qazan cəmiyyət və ona qənim kəsilən Serj Sarkisyanın dublikatı Paşinyan

ləşir: "İkincisi, etirazçıların siyasi tələblərinin olmadığını, yalnız qiymətlərin artırılmasının dayandırılmasını söyləmələri, yalnız görünüşün tərəfdir. İnsanlar artıq küçə "demokratı" Paşinyanın da yalançı və fırıldaqçı rejiminin təzyiqlərindən beziblər. Ermənistandan köçüb gedənlərin sayı ildən-ilə artır."

Millət vəkili əlavə edir ki, daxili və xarici siyasəti Rusiyadan asılı olan Ermənistan, forpost olaraq, davam edəcəkdir: "Ermənistanın Rusiya təsirindən çıxması imkanları indiki şəraitdə mümkün görünmür. Deməli, Ermənistandakı ümumi böhran daha da dərinləşəcək."



### Yerevan çabalasa da, böyük buxovdan qurtula bilmir

Bəli, başqa yol da yoxdur. Çünki Paşinyan, hələ də anlamır ki, Rusiya da onun bu günə kimi ikiüzlü "siyasətinin" dəfələrlə şahidi olub. Çünki bunun mümkün olmadığını hamı bilir.

Elə bu günlərdə Nikol Paşinyan keçirdiyi mətbuat konfransında bildirib ki, Qarabağ danışıqlarını Rusiyanın öhdəliyinə buraxıb. Jurnalistlər danışıqlardan imtinanın Azərbaycana müharibə hüququ vermək olduğunu xatırlatdıqda, Ermənistan baş naziri deyib: "Rusiya supergüc kimi bizim regionda müharibəyə yol verməmək üçün imkanlara malikdir. Mən inanmaq istəmirəm ki, Ermənistanın strateci müttəfiqi Rusiya, öz rıçaqlarından istifadə edib, müharibəni dayandırmayacaq. Mən inanmıram ki, Rusiya müharibənin başlamasına imkan verəcək və Azərbaycanı dayandırmaq üçün rıçaqlarından istifadə etməyəcək".

Bu açıqlama, nəinki Ermənistan, hətta Rusiya mətbuatında belə heyrətlə qarşılanıb. Rusiyanın "Lenta.ru" portalı mətbuat konfransına həsr etdiyi məqaləsini "Ermənistan Qarabağ münaqişəsinin həlli üzrə məsuliyyəti Rusiyaya ötürdü" başlığı altında verib. Yəni məsuliyyət daşıyan dövlət hüquqa da malik olur. Bu, Zori Balayanın bir neçə il öncə, Vladimir Putinə yazdığı məktuba bənzəyir. Onda Balayan Rusiyaya təklif edirdi ki, "Gülüstan" sülh müqaviləsinə əsaslanıb, Qarabağı özünə birləşdirsin. Bu, erməni millətçilərinin sərt reaksiyasına səbəb olmuşdu. Onlar iddia edirdilər ki, Qarabağ Ermənistanın ayrılmaz parçasıdır. Amma göründüyü kimi, indi eyni sözü Nikol da deyir.






### "Status-kvo qəbuledilməzdir və dəyişməlidir"

"Status-kvonun dəyişməsi Azərbaycan ərazilərinin işğaldan azad edilməsinin başlanması deməkdir". Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da Bakıda Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskla mətbuata bəyanatlarla çıxışı zamanı bildirib. Dövlət başçısı, onu da vurğulayıb ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır: "Bu gün Cənab Prezidentlə təkbətək görüşümüz zamanı mən ona Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyimiz barədə məlumat verdim. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən həll olunmalıdır. Uzun illərdir, ərazilərimiz erməni işğalı altındadır. Bir milyondan çox qaçqın və məcburi köçkün bu təcavüz və işğaldan əziyyət çəkir. Bizim qəti mövqeyimiz ondan ibarətdir ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır".



Qeyd edək ki, Azərbaycan Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, Paşinyan Azərbaycanın işğal edilmiş torpaqlarının qaytarılması istiqamətində hər hansı addım atmalıdır: "İki il bundan əvvəlki aprel döyüşləri göstərdi ki, Azərbaycan Dağlıq Qarabağ problemini hərbi yolla da həll etmək gücündədir. Bu baxımdan, Paşinyan Azərbaycanın işğal edilmiş torpaqlarının qaytarılması istiqamətində hər hansı addım atmalıdır, əks halda, Ermənistan iki il bundan əvvəlkindən də ağır məğlubiyyətə düçar olacaq".

### Ermənistan status-kvonun saxlanılmasında maraqlı görünsə də...

Millət vəkili, siyasi elmlər doktoru, politoloq Elman Nəsirli məsələ ilə bağlı "Səs" qəzetinə verdiyi açıqlamasında bildirib ki, məqsəd permanent danışıqlar yolu ilə status-kvonu-Azərbaycan torpaqlarının işğal altında saxlanılması vəziyyətini qoruyub-saxlamaqdan ibarətdir: "Bütün bunlara baxmayaraq, Azərbaycan tərəfinin münaqişənin həlli yolları ilə bağlı mövqeyi dəyişməzdir. Həmin mövqe Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən dəfələrlə bəyan edilibdir. Həmin mövqeyə görə, Azərbaycan dövləti münaqişənin beynəlxalq hüquq prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində və Dağlıq Qarabağın ermənilərinə respublikamızın hüdudları daxilində ən yüksək muxtariyyət statusu verilməsi yolu ilə həllini dəstəkləyir. Azərbaycan üçün bu çərçivədən kənarda hər hansı bir həll yolu qəbuledilməzdir. Münaqişənin həlli ilə bağlı bu yanaşma tərzi Azərbaycanın prinsipial mövqeyinin ifadəsidir. Münaqişənin həlli ilə bağlı danışıqlar prosesinin Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından nəticəsiz qalmasına baxmayaraq, o, hələ ki, davam etdirilməkdədir. Hər görüşlərdə Ermənistan rəhbərliyinin qeyri-konstruktiv siyasətinin nəticəsidir ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşləri də əvvəlki çoxsaylı təmasların taleyini təkrarlamalı olur. Hər halda, münaqişənin tənzimlənməsi prosesinin real mənzərəsinin natamam təqdimatı, belə sübut edir ki, Ermənistan hər vəchlə mövcud status-kvo vəziyyətini qoruyub-saxlamaqda maraqlıdır. Azərbaycan üçün isə, bu variant qəbuledilməzdir. Ermənistanın əvvəlki rəhbərləri kimi, N.Paşinyan da konfliktin həlli naminə nə siyasi iradə, nə də siyasi savad nümayiş etdirmək iqtidarında deyildir, çünki bu rejimin müvafiq addımları atmaq üçün ciddi sosial bazası yoxdur. Belə hallarda, cəbhə bölgəsində atəşkəs rejimini kobud şəkildə pozmaqla, Azərbaycan tərəfini daha ciddi adekvat addımlar atmağa təhrik etmək və nəticədə, ölkədaxili deyil, ölkəxarici problemlərin prioritetliyini qabartmaq hakimiyyətin mövcudluğunu qoruyub- saxlamağın Ermənistanda dəfələrlə sınaqdan çıxarılmış üsuludur".

E.Nəsirli bildirib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində, Azərbaycan dünyanın qüdrətli ölkələrindən birinə çevrilib və Azərbaycan mütləq öz torpaqlarını işğaldan azad edəcək və doğma torpaqlarından didərgin düşmüş bütün insanlar geri qayıdacaqlar: "Son günlər Prezident İlham Əliyev separatçı rejim haqqında olduqca sərt bəyanatlarla çıxış edir. Xatırladaq ki, bir neçə gün öncə, Azərbaycan Prezidentinin "Ermənistan ordusu geri çəkilmə prosesinə başlamalıdır" bəyanatı olub. Bu bəyanatın da təsadüfi olmadığını bildirməyə əsaslar var. Dövlət başçısı qeyd edib ki, Azərbaycan dövləti və Azərbaycan xalqı heç vaxt Dağlıq Qarabağa müstəqillik verməyəcəkdir. Ermənistan bunu nə qədər tez anlasa, o qədər yaxşıdır. Ermənistan, əslində, mövqeyindən geri çəkilməlidir. Onların mövqeyi Dağlıq Qarabağı müstəqil ölkə kimi görməkdir. Ancaq bu, mümkün olmayacaqdır. Çünki Azərbaycanın razılığı olmadan, bu, ola bilməz. Biz isə, buna heç vaxt razılıq verə bilmərik. Ona görə, əgər Ermənistan bu mövqedən geri çəkilərsə, o zaman biz tezliklə məsələnin həllinə nail ola bilərik. O zaman ermənilərin Dağlıq Qarabağda yaşaması, yəni normal yaşaması, təhlükəsizlik şəraitində yaşaması mümkün olacaqdır. Bundan, artıq Ermənistanda və Dağlıq Qarabağdakı separatçı ermənilər arasında ciddi təlaş müşahidə edilməkdədir. Bunu son günlər düşmən ölkə mediasında dərc olunan yazılardan açıq görmək mümkündür".

Göründüyü kimi, siyasi istiqaməti məlum olmayan və ümumiyyətlə, dövlətçilikdə naşı olan Paşinyanın nala-mıxa vurması ölkədə hansısa yenilik vəd etmir və təcavüzkar zəbt etdiyi torpaqlardan getməlidir, vəssalam! Bu problemin həllinin bir yol: Ermənistanın havadarları güc tətbiq edərək, işğalçı erməni silahlılarını Azərbaycan ərazilərindən çıxarmalıdırlar. Bunun isə, ehtimalı azdır. Onda Azərbaycan Ordusu "donuzu darıdan çıxarmalı" olacaq!

**A.SƏMƏDOVA**

## "Aİ Azərbaycanın ən böyük ticarət tərəfdaşıdır"



"Hazırda Avropa İttifaqı (Aİ) ilə Azərbaycan arasında münasibətlər yüksələn xətlə inkişaf etməkdədir. Aİ Şurasının Prezidenti Donald Tuskun Azərbaycana səfəri də düşünürəm ki, bu münasibətlərin ən bariz göstəricisidir". Bunu SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.

Deputatın sözlərinə görə, Aİ dünya siyasətini müəyyən edən güc mərkəzlərindən biridir və Azərbaycanın ən böyük ticarət tərəfdaşıdır: "Ona görə də şübhəsiz ki, dünyaya dəyərlər ixrac edən, dünyanın iqtisadi, siyasi tendensiyalarını müəyyənləşdirən bir güc mərkəzi ilə Azərbaycanın öz maraqlarını uzlaşdırması mühüm əhəmiyyətli bir məsələdir. Bu kontekstdə düşünürəm ki, Azərbaycanın ərazi bütövlüyü məsələsini xüsusi önə çəkmək lazımdır. Çünki 2018-ci ildə Aİ ilə Azərbaycan arasında "Tərəfdaşlığın Prioritetləri" haqqında memorandum imzalanan zaman da bu məsələ öz əksini tapdı. Donald Tuskun Azərbaycan Prezidenti cənab İlham Əliyevlə görüşündə də bu məsələnin təkrar olunması və Aİ Şurası Prezidentinin dilindən problemin sülh yolu ilə və "Helsinki" Yekun Aktının prinsiplərinə uyğun olaraq həllinin səsləndirilməsi və Azərbaycan Prezidentin bir daha ərazi bütövlüyünə vurğu etməsi düşünürəm ki, Aİ-Azərbaycan münasibətlərində strateji xətt kimi nəzərdən keçirilməlidir.

Heç şübhəsiz ki, Donald Tusk Azərbaycanda həyata keçirilən meqa layihələri yüksək qiymətləndirdi və Azərbaycanı şimal-cənub, şərq-qərb nəqliyyat kommunikasiyasının mərkəzi hesab etdi. Azərbaycan Prezidenti isə qeyd etdi ki, biz mühüm bir coğrafi mövqedə yerləşirik, ancaq bu coğrafiyanın potensialından milli maraqlar üçün lazımi səviyyədə istifadə edilməyəndə bu sadəcə coğrafiya olaraq qalır. Ona görə də bu coğrafiyada hazırki mövcud siyasətin həyata keçirilməsi heç şübhəsiz ki, Azərbaycanın beynəlxalq münasibətlərdə nüfuzunu artırmaqla bərabər onun milli maraqlarını təmin edir. Düşünürəm ki, Donald Tuskun Azərbaycan haqqında xoş fikirlər yazması, onu unikal bir dövlət kimi səciyyələndirməsi də elə Azərbaycanla Aİ arasında unikal, özünəməxsus münasibətlərin olmasının göstəricisidir. Bu da əlbəttə ki, Azərbaycanın milli və dövlət maraqlarına uyğundur".

## Almaniyada yeniyetmə qızı öldürən suriyalıya ömürlük həbs cəzası verilib



Almaniyada sığınacaq alan və 14 yaşlı yeniyetmə qızı zorlayaraq qətlə yetirən suriyalı Əli Bəşər Viesbaden məhkəməsinin qərarı ilə ömürlük həbs cəzasına məhkum edilib. BBC telekanalının saytında yer alan xəbərə görə, 22 yaşlı suriyalı qatil Suzanna Feldman adlı qurbanını öldürdükdən sonra ailəsi ilə birlikdə İraqın şimalına qaçıb. Yeniyetmə qızın cəsədi isə iki həftə sonra tapılıb. Meyitin yerini polislərə 13 yaşlı əfqanıstanlı qaçqın uşağı göstərib. Ərbil və Kərkük şəhərlərində gizlənən qatilin ailəsini İraq polisi həbs edərək Almaniyaya ekstradisiya edib. Suzannanın anası Diana jurnalistlərə deyib ki, onun gələcəyi və ürəyinin bir hissəsi qızının ölümü ilə yox olub.

# 1969-cu il 14 iyul-milli tariximizin dönüş yolu

### *50 il öncə başlanan bu yol Ulu Öndərimiz Heydər Əliyevin xalqı, milləti ilə bütünləşməsi və bütövləşməsi yolu olub*



***Tarix ən ədalətli hakimdir. Bu gün yaxın tariximizə diqqətlə nəzər yetirdikdə, bugünkü inkişafımız, sabitlik və xoş güzəranımız üçün kimə borclu olduğumuzu yaxşı anlayırıq. Belə şəxsiyyətin siyasət meydanına çıxması böyük tarixi hadisə kimi daim yaddaşlarda yaşayır. 1969-cu il iyulun 14-ü ən yeni tariximizin, məhz belə şərəfli və müqəddəs səhifələrindəndir. Müasir Azərbaycan tarixində yeni eranın başlanğıcı sayılan həmin gün böyük dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin respublikamıza rəhbərlik etməyə başlaması kimi son dərəcə qiymətli bir hadisə ilə əbədiləşmişdir.***

Həmin dövrdə Azərbaycanın siyasi, sosial-iqtisadi və mədəni durumu heç də ürəkaçan deyildi. O zamankı sovetlər birliyinin ən ucqar respublikalarından biri kimi səciyyələnən Azərbaycanda idarəetmədə çoxlu nöqsanlara yol verilmiş, iqtisadiyyat geri qalmış, sosial-mənəvi mühit şəffaflıqdan uzaq düşmüşdü. Belə bir vaxtda Ulu Öndər Heydər Əliyevin respublikanın ali vəzifəsinə seçilməsi tariximiz və taleyimiz, Vətənimiz və xalqımız üçün, sözün əsl mənasında, dönüş və xilas, möhtəşəm tərəqqi və yüksəliş erasının əsasını qoydu.



**MEHRİBAN ABASQULİYEVA,**
**YAP Sabunçu rayon təşkilatının sədri**

### Xalqın etimadını Ondan başqa heç kim doğrulda bilməzdi

Belə bir dahi insanın Azərbaycanda rəhbərliyə başlaması respublikanın xilası üçün yeganə düzgün yol idi. 1969-cu ildən başlanan böyük quruculuq və yüksəliş mərhələsi qısa müddətdə, Azərbaycanı bütün sahələrdə geniş tərəqqi yoluna çıxardı. Azərbaycanda Ulu Öndər Heydər Əliyevin birinci hakimiyyəti dövründə (1969-1982) sosial, siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində ölçüyəgəlməz uğurlar qazanılmış, qüdrətli iqtisadi potensial, maddi-texniki baza yaradılmış, əhalinin rifahı xeyli yüksəlmiş, elm, təhsil, mədəniyyət güclü inkişaf prosesi keçmiş, milli şüurun oyanışı və dirçəldilməsi istiqamətində çox mühüm işlər görüldü. Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə sənayedə 581 adda yeni tipli maşın, avadanlıq, aparat, cihaz nümunələri yaradılmış, 310 avtomatlaşdırılmış xətt, 1300 kompleks mexanikləşdirilmiş sex, istehsal sahəsi və i.a. yaradılmışdır. 1970-ci ildən başlayaraq, Azərbaycan sənaye məhsulunun artım sürətinə görə müttəfiq respublikalar arasında ən qabaqcıl mövqeyə çıxmışdı. Respublikada kənd təsərrüfatı və onun xammalını emal edən sahələr böyük sürətlə inkişaf edirdi. 1970-1982-ci illərdə kənd təsərrüfatı məhsulu 2,6 dəfə, əmək məhsuldarlığı 2,2 dəfə artmışdı. Bütün bunlar inkişafın ümumiləşdirilmiş göstəricisi olan milli gəlirin sürətlə artmasına səbəb oldu.

Azərbaycan dilinin dövlət dili kimi konstitusiya səviyyəsində rəsmi status qazanması da dahi rəhbərin qətiyyəti və siyasi iradəsi hesabına gerçəkləşdi. Möhtəşəm fəaliyyəti ilə şöhrətlənən dahi Heydər Əliyev 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkildi. Bütün bunlar isə, 1969-cu il iyulun 14-dən başlanan şanlı Heydər Əliyev epoxasının vüsət və əzəmətinin parlaq təzahürü idi.

### 50 il - Ulu Öndər Heydər Əliyevin xalqı, milləti ilə bütünləşməsi və bütövləşməsi yolu

Həqiqətən də, bu illərin heç birində, O, xalqından ayrı nə xalqından kənarda olmayıb. Və ən əsası odur ki, xalq və millət bu illər ərzində heç vaxt özünü Ümummilli Liderimiz Heydər Əliyevdən, Onun böyük və müdrik rəhbər dühasından ayrı görməyib. Məhz bu səbəbdəndir ki, Azərbaycan xalqı bu illərdə özünü tənha, arxasız və güvənsiz hiss etməyib. Təsadüfi deyil ki, Azərbaycan xalqı 1993-cü ilin yayında müstəqil dövlətçiliyimiz, milli gələcəyimiz uçurumun kənarında dayananda, Azərbaycanı vətəndaş qarşıdurması, zülmət və parçalanma gözləyəndə, yenə də öz gerçək Liderinə - Heydər Əliyev müdrikliyinə üz tutdu. Bu, xalqın liderinin xalqın çağırışına səs verib, Onun hüzuruna qayıdışı idi. Bu, eyni zamanda, xalqın artıq qəribsədiyi güvənli, təhlükəsiz və arxayın həyata qayıdışı, sabaha inam və etimadının bərpası idi... Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlməsindən ötən 50 ilin hər səhifəsi Azərbaycanın inkişaf, sınaq və özünütəsdiq səhifəsidir. Çünki bu səhifələri vərəqləmək Azərbaycan tarixinin bütöv bir qərinəsinə nəzər salmaq deməkdir. Həmin tarixdən 50 il keçməsinə baxmayaraq, xalqımız Ulu Öndərimizin uzaqgörən, elmi-iqtisadi cəhətdən əsaslandırılmış siyasətinin bəhrəsini görür, bu məktəbin layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyevin şəxsində Azərbaycanın firavan gələcəyinə zəmin yaradan siyasəti dəstəkləyir. Çünki bütün bunlar Ulu Öndərin əbədiyaşar təliminin həyati gücünün təntənəsidir, 1969-cu il iyulun 14-dən başlanan Heydər Əliyev epoxasının uğurlu davamıdır.

# Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Şəkinin ümumdünya irsi olması ilə bağlı bəyanat yayıb

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Azərbaycan Respublikasının "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi ilə bağlı bəyanat yayıb. Bəyanatda Fond bu münasibətlə Azərbaycan xalqı ilə birlikdə bütün türk dünyasına təbriklərini çatdırıb. Bəyanatda deyilir: "Öz mədəni abidələrini, mənəvi irsini qoruyub saxlamaq Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu sahədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın mühüm əhəmiyyətə malik fəaliyyəti xüsusi qeyd edilməlidir. Onun bilavasitə təşəbbüsü və səyləri nəticəsində Azərbaycanın mədəniyyət abidələri və qeyri-maddi mədəni irs nümunələri UNESKO-nun siyahılarında öz layiqli yerini tutmuşdur.

Qədim İpək Yolu üzərində yerləşən, tarixən tolerantlıq şəhəri kimi tanınan Şəki dünya mədəniyyətinə karvansaraylar, məscidlər, körpülər, sənətkarlıq emalatxanaları kimi unikal memarlıq nümunələri, Qafqazın əsas ipək istehsalı mərkəzi olaraq qeyri-maddi mədəniyyət incisi kimi kəlağayı bəxş etmişdir.1763-cü ildə Hüseyn xan tərəfindən inşa etdirilən, minlərlə müxtəlif rəngli şüşələrdən yığılmış və Azərbaycanın dekorativ tətbiqi sənət növü olan şəbəkə-pəncərələrdən istifadə edilmiş Şəki Xan Sarayı dünya əhəmiyyətli tarixi memarlıq abidəsidir. Bu qürurverici hadisə türk dünyasının bir parçası olan Azərbaycana məxsus nadir memarlıq abidəsinin beynəlxalq miqyasda daha da tanınmasına öz töhfəsini verəcək və türk dünyası ilə UNESKO arasında yeni-yeni əməkdaşlıq körpülərinin salınmasına səbəb olacaqdır.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu inanır ki, yaxın gələcəkdə Naxçıvandakı "Möminə Xatun Türbəsi", Suraxanıdakı "Atəşgah", eləcə də, işğal altında olan Dağlıq Qarabağ torpaqlarında yerləşən "Yuxarı Gövhər Ağa" məscidi, "Qarabağ Xan Sarayı" və s. kimi böyük memarlıq abidələri də UNESKO-nun Ümumdünya İrs Siyahısında öz əksini tapacaqdır".

# Əli Kərimli elə şeytanın özüdür

*Yaxud da əxlaqsız "liderin" mənəviyyatsızlığı - bütün həyatı boyu*

***Bu günlərdə jurnalist Eynulla Fətullayevin sosial şəbəkədə AXCP sədri Əli Kərimli ilə bağlı yazısını oxuyarkən, dedikləri ilə tam şərik olduğumu bildirdim. E.Fətullayev yazır ki, "siyasətçi ikiüzlü tərzdə yalan danışa bilərmi?! Yalan danışmalı, ya danışmamalı? Budur bütün məsələ.***

Dünyamız qədər əbədi olan bu dilemma mənəviyyatçılarla makiavelliçiləri az qala keçilməz barrikadalar kimi ayırıb. Lakin biz hamımız, demək olar ki, siyasətdə makiavelliçilərin çoxluğu ilə barışmışıq, teatr səhnəsindəki bütün aktyorları ya şir, ya da tülkü kimi qəbul edirik. Azərbaycanın siyasi səhnəsində məğrur və əyilməz şirlərdən daha çox kürən və hiyləgər tülkülər var-gəl edir. Makiavelliyə görə, nağıllarda və elə təbiətdə olduğu kimi, tülkü siyasətçi kişiliyi və şərəfi deyil, qəddar yalanı simvolizə edir".

Satqın Ə.Kərimli, C.Həsənli, İ.Qəmbər, A.Hacılı, G.Hacıbəyli və bu kimi ikiüzlü kürən, hiyləgər, şərəfsiz, əxlaqsız, mənəviyyatsız makiavelliçiləri var və özlərini "lider" sayan bu satqınlar, hətta "görkəmli, tarixi şəxsiyyətlərə" bənzədirlər. Ən çox da üz-gözündə əxlaqsızlıq cizgiləri aydın şəkildə görünən mənəviyyatsız Ə.Kərimli bu iddia ilə çıxış edir. Bəli, Kərimli özünün layiq olmadığı uğurlarına və siyasi həyatına görə borclu olduğu "liderinin" üstündən qalın xətt çəkib. Elçibəy "Azadlıq" qəzetinin adi xüsusi müxbirindən Azərbaycanın dövlət katibini, sonradan isə öz müavinini gördü. Eks-prezidentin Kələkiyə sürgünü dövründə isə Kərimli, nəinki rəhbəri "dəfn edib" partiyanın sükanını ələ keçirdi, həm də onu uğurla hakimiyyətə satdı. Ə.Kərimlinin özü bu barədə "Azadlıq" radiosuna danışarkən, bildirib ki, bütün həyatım boyunca mən hakimiyyətdən heç kimlə əməkdaşlıq etməmişəm, spekulyasiya ilə məşğul olmamışam. Növbəti zəhərli ilanın yalanı baş verənləri təhrif etməsidir: "Mən Taleh Kərimlini heç yaxından tanımırdım (Nardaran hadisələrinin təşkilatçısı olan ekstremist şiə lider - R.H.) Nardarandakı hadisələri isə hakimiyyət özü təşkil etmişdi. Bizi isə onlarla əlaqələndirdilər". Daha sözüm yoxdur, buna ancaq heyrət etmək olar! Bu cür ağ yalanı necə danışmaq olar?! Ə.Kərimli kimi əxlaqsız məxluqlar danışa bilər. Bəyəm Ə.Kərimli və AXCP Taleh Bağırzadənin başçılıq etdiyi ekstremistlərin müdafiəsinə qalxmamışdı?! Bəyəm sosial şəbəkələrdə dünyəvi siyasətçi üçün qəribə görünən dini şüarlarla çıxış edən Kərimlinin müavini Fuad Qəhrəmanlı deyildi?! Bəyəm Kərimli özü mitinqlərdə Hacı Talehi və Nardaran hadisələrinin bütün iştirakçılarını azad etməyə çağırmırdı?! Nardarandakı barrikadaları müqavimət hərəkatının Kəbəsi və hər bir narazının Məkkəsi elan edən, radikal şiə qardaşlığı ilə israrla ittifaq quran Kərimli özü deyidi?! İndi isə həyasızcasına



teokratik Nardaran hərəkatının fəalları ilə heç tanış da olmadığını deyir. Həyasızlığın o biri üzü... f...

## Satqın AXCP sədrinin ikinci "Mat Tereza"sı-Sevinc Osmanqızı

Bax, bunu tanımasına şübhə də etmirəm. Çünki Ə.Kərimlinin primadonnaları olduğu kimi, "Mat Tereza"ları da çox olub. Xədicəsi, sonra, Gültəkini və... daha kimlər, onun ardınca isə gəldi Sevinc Osmanqızı "Mat Tereza"sı hesab olundu. Və S.Osmanqızı özünü "Mat Tereza" kimi təsdiqləmək üçün, başladı Ə.Kərimlisayağı satqınlıq etməyə, daha doğrusu, satılmağa. Satılmağın da bir məqsədi qrantlar, evlər, villalar əldə etmək. Azərbaycanın üzləşdiyi ən ciddi problemlərindən elə biri mənəviyyatsız və əxlaqsız müxalifətdir. Nə qədər paradoksal olsa da, onlar bilmirlər ki, ölkə hakimiyyəti normal, adekvat, ciddi və hadisələrə dərhal normal reaksiya verən müxalifətə maraqlıdır. Belə müxalifət hakimiyyəti sərt tənqid etməli, iqtidar mənsublarını diskussiyalara və debatlara çağırmalı, problemlərin həll yollarını təklif etməli, hakimiyyət təklifləri qəbul etməyəndə isə, xalqı etiraz aksiyalarına səsləyərək, iqtidara təzyiq göstərməlidir. Parlament də, hökumət də, hakimiyyət də belə müxalifətin iştirakı ilə formalaşmalıdır. Amma... sevinclər, xədicələr, gültəkinlər, leylalar və kimlər, kimlər... çirkaba bulaşmışlar anlamalıdırlar ki, reallıq odur ki, Azərbaycan dövləti nə daxildən və xaricdən qaynaqlanan çoxsaylı çağırışlarla qarşılaşıb, bir dəfə də geri çəkilməyib. Bu satqın parazitlər anlamalıdırlar ki, xaricdən maliyyələşdikləri, Azərbaycandan kənarda olanların göstəriş və əmrləri ilə davrandıqlarını var qüvvələri ilə təkzib etsələr də, yalan cidasını "YouTube" ilə "Facebook"dakı ikiüzlü çıxışların çuvalında gizlətmək mümkün deyil. Bunu AXCP sədri Ə.Kərimli, çox gec olsa da, anlamalı, ya da anlamağa çalışmalıdır.

Bir daha təkrarlamaq istəyirəm: ölkənin taleyi xarici paytaxtlardakı qaranlıq kulislərdə qəbul ediləcək hansısa qərarların öhdəsinə buraxılmayıb, buraxılmayacaq da. Bunu Ə.Kərimli kimi parazitlər anlamağa məcburdurlar.

***Rəfiqə HÜSEYNOVA***

# Qənimət Zahid "Zəfər Tağı"nın altında "Üç Palma" açır?

*Xocalı soyqırımı günü eyş-işrətlə kef çəkən bu gədadan hər şeyi gözləmək olar*

***Sirr deyil ki, hazırda xarici ölkələrdə internet televiziyası, yaxud sosial şəbəkələrdə canlı yayım səhifələri açan şəxslər var və onların əsas vəzifələri Azərbaycan dövlətinə qarşı fəaliyyət göstərən bir sıra ermənipərəst təşkilatların sifarişlərini pul-para, daha dəqiq desək, qrantlar vasitəsi ilə yerinə yetirməkdir. Misal üçün, Sevinc Osmanqızı, Qurban Məmmədov, Qənimət Zahid və s.***



## Qənimət Zahid pulları haradan, kimlərdən, necə və hansı üsullarla qoparır?

Sözügedən məsələnin daha bir maraqlı məqamı budur ki, adları çəkilənlər Azərbaycanda özlərini "müxalifət liderləri" kimi təqdim edənlərlə virtual şəbəkə bağlılığı yaradıblar. Məsələn, S.Osmanqızı ABŞ-dan, Q.Zahid Fransadan canlı yayımlara qatılırsa, onların ənənəvi qonaqları, ya AXCP sədri Əli Kərimli, ya "Milli Şura"nın sədri Cəmil Həsənli, ya da başqalarıdırlar. Ortaya qoyulan "sual -cavablar", yaxud efir planı isə, öncədən bəlli olur - bacardıqca Azərbaycan dövlətinə, hakimiyyətinə qarşı radikal çıxışlar edib "likelər" (bəyənmələr-R.R.) qazanmaq, şərhlər əldə etmək və sonradan onları öz ağalarına göstərib qrantlar qazanmaq. Həmin qrantlar isə, əlbət ki, həm "qonaqlarla", həm də öz aralarında bölüşdürülür. Düzdür, verilən pul-paralar qeyri-rəsmi olsa da, fakt budur ki, əgər ödənişlər olmasa, nə internet televiziyalar, nə də canlı yayımlar fəaliyyət göstərməz. Bu zaman sual yaranır: Q.Zahid pulları haradan, kimlərdən, necə və hansı üsullarla qoparır..?

## Qənimət Zahid 2007-ci ildə hansı qadına sataşıb?

Axı bilinən qədər Q.Zahid bar-bar bağıraraq "ədalətdən", "düzgünlükdən" dəm vurur, özünü "aydan-arı, sudan duru" göstərib, guya heç vaxt kimsədən pul almadığını və şantajlar etmədiyini deyir. Bəs bu, həqiqətdirmi? Əlbəttə ki, əsla! Bu gün Q.Zahidi tanıyanlar yaxşı bilirlər ki, o, hansı "yuvanın quşudur" və hazırkı dövrə qədər nə qədər xəyanətlər edib, həyatını ölçüyəsığmaz qədər tərbiyəsiz işlərə həsr edib, şantajçılıq və sabotajçılıqla məşğul olub.

Yeri gəlmişkən, bu, həmin Q.Zahiddir ki, vaxtilə "Azadlıq" qəzetinə baş redaktorluq edərkən orta ranqlı məmurlardan, iş adamlarından pul alıb və həmin pulları eyş-işrət məclislərinə xərcləyib. Hətta 2007-ci ildə Sevgiladə Quliyeva adlı qadına "Azərbaycan" Nəşriyyatının qarşısında sataşdığına və döydüyünə görə, məsuliyyətə cəlb olunan və "Üç Palma" restoranında Xocalı faciəsinin ildönümü günü "Azadlıq" qəzetinin əməkdaşı olmuş Azər Əhmədovla (öz baldızının qızı ilə intim görüntüləri yayılan-R.R.) birgə Özbəkistandan olan fahişələrlə min-bir oyundan çıxan da, məhz Q.Zahiddir!

## Fransada kiminsə ağuşuna sığınıb, yenidən Azərbaycana əl uzatmaq sevdasını canla-başla həyata keçirir və nökərçilik göstərir

Maraqlısı da budur ki, Q.Zahid bu günlərdə erməni pullu dayılarının vəsaitləri ilə yaratdığı canlı yayımları ilə yenidən "qucaqlardadır." Yəni bir vaxtlar sədası "Üç Palma"dan gələn Qənimət bu gün Fransada kiminsə ağuşuna sığınıb, yenidən Azərbaycana əl uzatmaq sevdasını canla-başla həyata keçirir və nökərçilik göstərir. Özünü Fransadakı erməni lobbisinin qucağına təslim edən Q.Zahidin özünü qoyaq bir kənara və yenə də sual edək - bu gün o ailəsi ilə (!) bahalı Fransada yaşayır, övladlarını pullu məktəblərdə oxutdurur, mülk alır, digər xarici ölkələrə səfərlər edir, bəs hansı vəsaitlərlə? Əgər üstəgəl verliş yaratması, proqramçı, müxbir saxlamasını da buraya əlavə edərsək, Q.Zahidin bir aylıq demirik, bir günlük qazancı nə qədərdir? Bəlkə Q.Zahid indi də Parisin "Zəfər Tağı" deyilən tarixi abidəsi altında "Üç Palma" restoranı açıb və yerdə qalan qazancını da oradan çıxarıb-əldə edir? Əslinə qalanda, bu gədadan hər hansı rəzilliyi, alçaqlığı gözləmək olar. Ona görə də, zarafat-zarafat, bu gədənin paxırları üzə çıxmağa başlayır.

***Rövşən RƏSULOV***

# Keçmiş məhkumun evindən 10 kiloqramdan çox marixuana götürülü

Narkotik vasitələrin qanunsuz dövriyyəsi, həmçinin kultivasiya yolu ilə yetişdirilən narkotik tərkibli bitkilərin aşkarlanması istiqamətində daxili işlər orqanları tərəfindən uğurlu əməliyyat tədbirləri davam etdirilir.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ağcabədi Rayon Polis Şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Avşar kənd sakini, əvvəllər məhkum olunmuş M.Rüstəmovdan heroin, yaşadığı evdən 10,5 kiloqram marixuana, həyətyanı sahəsindən isə kultivasiya yolu ilə yetişdirilmiş 10 çətənə kolu aşkar edilərək götürülüb. Faktla bağlı araşdırmalar davam etdirilir.



# Astarada yol polisi narkotik maddə qəbul etmiş sürücünü saxlayıb



Astara Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin əməkdaşları güclü təsiredici narkotik vasitənin təsiri altında sərnişin daşıyan sürücünü saxlayıblar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Lənkəran regional qrupundan AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata əsasən, Bakıdan Astaraya "Tofaş" markalı avtomobillə sərnişin daşıyan Bakı şəhəri Bülbülə qəsəbəsinin sakini Əvəz Abbasov təhlükəsizlik kəmərindən istifadə etmədiyi üçün Astara şəhəri ərazisində dövlət yol polisi əməkdaşları tərəfindən saxlanılıb. Yoxlama zamanı nəqliyyat vasitəsini idarə etmək üçün ona verilən etibarnamənin vaxtının bitdiyi, avtomaşının isə texniki baxışdan keçmədiyi müəyyənləşdirilib. Sürücünün hərəkətləri şübhə doğurduğu üçün o, tibbi müayinədən keçirilib. Ə.Abbasovun avtomobili narkotik vasitənin təsiri altında idarə etdiyi məlum olub. Polis əməkdaşları tərəfindən keçirilən baxış zamanı onun idarə etdiyi avtomobildən narkotik vasitə və bir şpris aşkarlanaraq götürülüb. Faktla bağlı araşdırmalar aparılır.



# Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

***Milli mənlik şüuru, vəzifəsindən, tutduğu mövqeyindən asılı olmayaraq, hər bir vətəndaşa xas olan keyfiyyətdir. O, ictimai şüurun bir hissəsi kimi çıxış edir və hər bir şəxsin daxili xarakterini, insanlara, cəmiyyətə olan münasibətini əks etdirir. Xalq şairi Bəxtiyar Vahabzadə "Vicdan, namus və ləyaqət" adlı məqaləsində yazırdı ki, milli mənlik şüuru azadlıq və demokratiya şəraitində daha yaxşı inkişaf edir və formalaşır.***

Hər bir xalq, hər bir millət öz "mən"ini, milli mənlik şüurunu və vicdanını vətən, xalq üçün çətin anlarda daha dərindən duyur və hiss edir. Heç kimə sirr deyil ki, mənəviyyat olmayan yerdə milli mənlik şüurundan, vətənpərvərlikdən söhbət gedə bilməz. Azərbaycan xalqının tarixində müəyyən iz qoymuş məşhur şəxsiyyətləri dünyada tanıtdıran və gələcək nəsillər üçün örnək edən səbəblərdən biri də onların yüksək mənəviyyata, müqəddəs amallara malik olmasıdır. Dahi şairimiz Nizami Gəncəvi vətənini, xalqını sevməsə idi, ölməz əsərlər yarada bilərdimi? Məmməd Arazın vətənpərvərliyi, onun ölkəsinin torpağına, daşına, ümumilikdə təbiətinə sıx bağlılığı əsərlərində özünü çox qabarıq göstərir: "Vətən mənə oğul desə nə dərdim, mamır olub qayasında bitərdim". Vətənpərvərliyi, vətənə sevgini belə əsərlərdən öyrənmək, əxz etmək də mümkündür.

Vətənpərvər gənclərə böyük qayğı göstərən Ümummilli Liderimiz Heydər Əliyev belə gənclərin vətənin, xalqın müqəddəratında önəmli rol oynadığını daim vurğulayırdı. Ulu Öndər Heydər Əliyev gənclərlə görüşlərinin birində demişdi: "Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi bilməyən gənc yaxşı vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük məfhumdur. Cənc nəslin milli mənlik şüurunun inkişaf etməsində, onların vətənpərvər böyüməsində bir çox amilər mühüm rol oynayır. Onlardan biri də, məhz yazılan qəhrəmanlıq salnamələri, dastanlar və bədii əsərlərdir. Belə əsərlər gənc nəslin milli mənlik şüurunun inkişaf etməsinə, onların vətənpərvər böyüməsinə öz töhfəsini verir.

Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsində bir çox amillər mühüm rol oynayır. Ölkəmizdə gənc nəslə göstərilən qayğı bu məsələdə önəmli yer tutur. Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsində vətənpərvərlik mövzusunda olan mahnıların, veriliş və tamaşaların da xüsusi payı var. Lakin cəmiyyətə ən tez təsir gücünə malik olan musiqilərin yeri, əlbəttə ki, danılmazdır. Belə mahnılar gənclərə vətən sevgisi aşılayır, onların milli mənlik şüurunu daha da formalaşdırır. Vətənpərvərlik mahnılarının tanınmış ifaçısı Şəmistan Əlizamanlı ilə olan söhbətimiz də elə bu mövzuda oldu.

Məlumat üçün bildirək ki, Şəmistan Əlizamanlı 1986-cı ilin may ayından müsabiqə yolu ilə Azərbaycan radiosunun aparıcısı seçilib. Ecazkar səsi ilə hərbi mahnıların unudulmayan ifaçısı kimi yadda qalan Şəmistan Əlizamanlı Türkiyə Dövlət Televiziyası TRT-nin Azərbaycan bürosunda çalışıb. Şəmistan Əlizamanlı 1959-cu ildə Gürcüstanın Marneuli (Borçalı) bölgəsində doğulub. İndiyə qədər "Çağırır vətən", "Qalx, Azərbaycan", "İgid əsgər, möhkəm dayan", "Vətən əmanəti", "Öncə vətəndir", "Can Azərbaycan", "Birinci batalyon", "Cənab leytenant", "Çırpınırdı Qara dəniz", "Dağlar", "Azərbaycan-Türkiyə", "Ana yurdum", "Tanrı türkə yar olsun", "Heyran türkün bayrağına", "Qafqaz dağı, yol ver bizə" və sairə mahnıları ifa edib.

Gəncliyində gəmi kapitanı olmaq istəsə də, tale onu zəhmli, qeyri-adi səs tembri nəticəsində, heç gözləmədiyi bir sahilə gətirib çıxarıb... O sahilə ki, orada müharibənin dəhşətli tufanlarının, enişli-yoxuşlu həyat yolunun şahidi olub...

Sənətçi söhbətində bildirdi ki, insan özünü, kim olduğunu dərk etdikdən sonra vətənpərvərlik hissləri də çoxalır: "Məncə, hər bir insanın daxilində belə hisslər var. Xalqımızın üzləşdiyi ağrılı problemlər mənə də çox dərindən təsir edir. Hisslər hər insanda eyni dərəcədə olmur. Mənim xoşbəxtliyim, bəlkə də, ondadır ki, vətənimizə, torpağımıza olan sevgim daha çoxdur. Mənim babam Cənubi Azərbaycandan, Nadir şahın sülaləsindəndir. Özümü dərk edəndən bizim evimizdə Azərbaycanın bölünməsi, parçalanması barədə söhbətləri gedib. Xalqımızın üzləşdiyi haqsızlıqları, hamı kimi, mən də gördüm və bu mənə pis təsir edirdi. Mən kənd mühitində böyümüşəm. Kəndimizdə meyvə ağaclarına baxa-baxa, düşünərdim ki, görəsən, Təbrizdə də alma ağacları buradakı kimidirmi? Bilirsiniz, hər bir insan müəyyən qədər valideynlərinə bənzəyir, onların xüsusiyyətlərini daşıyır. Mənim uşaqlığım maraqlı keçib. Doğulduğum Borçalı mahalı sazlı-sözlü yer olub. Gözəl təbiət qoynunda, at belində keçib uşaqlığım. Atam təbiətin vurğunu idi. Bəlkə də bir zamanlar meşəbəyi işləməsi təbiətə olan vurğunluğundan irəli gəlib. Onun gəncliyi çətin dövrə düşdüyündən, ali təhsil ala bilməmişdi. Lakin əmimin ali təhsil almasının səbəbkarı atam olmuşdu. II Dünya müharibəsi zamanı əmim müharibədən qayıtmadı. O, 6 ay idi ki, ailə qurmuşdu... Bu hadisənin özü də ailəmizə sarsıdıcı zərbə oldu. Babam da, dayım da bu müharibənin qurbanıdır. Müharibə mənim yaddaşımda ağrısızabı ilə qalıb... Zənnimcə, vətənpərvərlik hissləi mənə də gendən keçib. Vətənimizlə bağlı baş verən hadisələrə biganə qala bilmirəm: "Əlbəttə, vətənpərvərlik hisslərinin formalaşmasında təbliğatın böyük rolu var. Təəssüf ki, indi televiziya və radiolarda milli vətənpərvərlik hissini aşılayan verilişlər çox azdır. Mətbuatda da bu səpkidə olan yazılara az rast gəlirik. Bu baxımdan, qəzetinizin işini dəstəkləyir və uğurlar arzu edirəm. Hər bir mətbuat orqanı, hər bir televiziya kanalı bu mövzunu diqqətdə saxlamalı, marş və vətənpərvərlik ruhunda olan mahnılara, filmlərə üstünlük verməlidir. Şou verilişləri, mənasız teleseriallar baş alıb gedir, vətənpərvərlik ruhunda olan verilişlərə isə az yer ayrılır",- deyə Şəmistan müəllim əlavə etdi. "Bəs hansı qəhrəmanımızı canlandırmaq istəyərdiniz" sualıma isə ifaçı belə cavab vermişdi: "Mən qəhrəmanlarımızı bir-birindən ayırmıram. Onların hamısı igidlik, cəsurluq, mərdlik nümunəsidir. Ölkəmizi, torpağımızı onlar qədər sevməyi bacarmaq lazımdır. Qəhrəmanlıq yeganə əməldir ki, onu öyrətmirlər. Bu, gərək insanın qanında-canında olsun... Mən belə igidləri gördüyüm, onlarla çiyin-çiyinə vuruşduğum üçün fəxr edirəm. Elə xatirələr var ki, onları sözlə ifadə etmək olmur, mütləq yaşamaq lazımdır. Şəhid oğullarımızın qəhrəmanlığı gənc nəslin milli şüurunun oyanmasına, onların vətən sevgisi ilə böyümələrinə imkan yaradır. Milli şüur gənc nəslin qanına hopmalıdır. Onlarda bu hissləri hərbi janrda olan musiqilərlə, şeirlərlə yaratmaq mümkündür".

Mahnı oxumağının təsadüfən alındığını deyən Şəmistan Əlizamanlı bunun maraqlı tarixçəsi olduğunu bölüşdü: "Mən insanların yaddaşında daha çox hərbi diktor kimi qalmışam. Vətənpərvərlik mövzusunda oxuduğum mahnıları yaradıcılığımın bir qolu hesab edirəm. Etiraf edim ki, heç vaxt mahnı oxumaq arzusunda olmamışam. Diktorluq fəaliyyətim nəticəsində, müharibədə iştirak etdim və mahnı oxumağım bir təsadüflə başladı. Bunun maraqlı tarixi var. 1993-cü ildə Ağdərədə Çıldıran əməliyyatında mühasirəyə düşdük. Lakin bu hal uzun çəkmədi və böyük səylə mühasirədən çıxdıq. Mühasirəyə düşərkən, üst-başımız tamam palçığa batmışdı. Məni Yusif adlı bir nəfərə tapşırdılar ki, əyinbaşımı dəyişim. Həmin Yusif arxa cəbhə üzrə komandir müavini idi. Mən o zamana qədər Yusif Mirzəyevi tanımırdım. O, mənə elə mehribanlıq, qayğıkeşlik göstərdi ki, elə bildim, Yusifi lap çoxdan tanıyıram... O gündən sonra çox yaxın dost olduq. Yusif Naxçıvandan idi. Ağdərəyə könüllü getmişdi. Çətin döyüşlər, müharibənin ağır şərtləri, bütün əsgərlər kimi, Yusifdən də yan keçməmişdi. Onun sənədləri hələ sağlığında Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülməsi üçün təqdim olunmuşdu. Böyrəklərində yaranan xəstəlikdən və kəskin ağrılardan əziyyət çəkirdi. Onu məcbur etdik ki, xəstəxana şəraitində müalicə olunsun. Yusif xəstəxanada qalarkən, mən də yanına gedib baş çəkirdim. Çıldıran əməliyyatı zamanı yanımızda partlayan mərmilərdən mən də payımı almışdım. Odur ki, məni də dostumun müalicə olunduğu xəstəxanaya göndərdilər. Biz orda bir otaqda qalırdıq. Xəstəxananın həkimi Şahin Musaoğlu bizə tez-tez baş çəkirdi. Onunla aramızda isti münasibət yaranmışdı. Bir dəfə bizə dedi ki, bir mahnı yazmışam, istəyirəm qulaq asasınız. Şahin zümzümə edərək yazdığı mahnını ifa etdi. Bu mahnı "İgid əsgər, möhkəm dayan" adlanırdı. Mahnı Yusifin çox xoşuna gəldi, hətta o qədər bəyənmişdi ki, dilindən düşmürdü. Bir dəfə ona dedim ki, bu mahnını bu qədər bəyənirsənsə, mən də bir gün oxuyub, sənə ithaf edərəm. Yusif müalicədən sonra Ağdərəyə, mən isə Müdafiə Nazirliyinə qayıtdım. Sonra biz yenə görüşdük. O, mahnını nə vaxt ifa edəcəyimi səbirsizliklə gözlədiyini dedi. Düzü, mən də bəhanələr gətirib, işi ləngidirdim. Deyirdim ki, mahnı ifa etmək məndə alınmaz. Sonra öyrəndim ki, Yusif əsgərlərə "İgid əsgər, möhkəm dayan" mahnısını əzbərlədib oxutdurarmuş. Bu hadisə məni bir az həvəsləndirdi. Düşündüm ki, bəlkə bu mahnı mənim ifamda yaxşı alınacaq? Mahnının sözlərini çap edib, vərəqin yuxarısında "Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyevə ithaf edirəm" sözlərini yazmışdım. O, axırıncı dəfə Bakıya gələndə, həmin vərəqi Yusifə göstərdim və dedim ki, bax, yazmışam ki, "Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyevə ithaf edirəm". Bu görüşümüzdən bir neçə gün sonra Yusif Ağdərə uğrunda gedən döyüşlərin birində şəhid oldu... O, mənim dostum idi. Yusifin həyatımda qoyduğu boşluq ömrümün sonuna qədər dolmayacaq..."

***Jalə Rzabəyli***
***Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna təqdim etmək üçün***

# XALQ ƏLİ KƏRİMLİYƏ NƏ ÜÇÜN ETİRAZ ETDİ? SƏBƏBLƏR CİDDİDİR...

***Ənənəyə uyğun olaraq, ötən bazar ertəsi AXCP sədri Əli Kərimli yenidən "Osmanqızı" TV-də canlı yayıma çıxdı. Hər zaman olduğu kimi, bu dəfə də şər və böhtanlarını, qərəzli fikirlərini ictimaiyyətə sırımağa çalışdı. Amma uğursuz "siyasətçi" və istedadsız bloger yenə də xalqın virtual etirazı ilə qarşılaşdı.***

Güclü bloklaşmaya və rəylərin silinməsinə baxmayaraq, veriliş boyu "youtube" istifadəçiləri Ə.Kərimlinin fikirlərini rədd ediklərini bildirir və canlı yayımı "dislike" edirdilər. Yayım ərzində, təxminən, 2100-dən artıq sosial şəbəkə fəalı Ə.Kərimlinin çıxışını bəyənmədiyini bildirmişdi. Baxmayaraq ki, başda Sevinc Osmanqızı olmaqla, AXCP-nin bütün trolları "like" üçün insanlara yalvarırdılar, lakin bu da heç bir nəticə vermədi. Təqdim edilən şəkildən də görürsünüz ki, Osmanqızının moderatorları və Ə.Kərimlinin trolları verilişi "bəyənmə" üçün yalvarır, "dislike" edənləri isə, aşağılayıcı ifadələrlə təhqir edirlər.



## Əli Kərimli Prezident Aparatını ailə obyektinə çevirmişdi

Bu və ötən canlı yayımlarda efirə qoşulan insanların da Ə.Kərimlini sərt tənqid etməsi göstərir ki, artıq ictimaiyyət AXCP sədrinin yalanlarını qəbul etmir. Onun danışdıqları və Osmanqızının qərəzli mövqeyi, efirdə əzilib-büzülməsi izləyicilərdə ancaq ikrah doğurur. Eyni zamanda, ötən 26 il ərzində baş verənlər psixoloji olaraq insanların kəskin münasibətini ortaya qoyurdu...

Çünki Ə.Kərimlinin zamanında təmsil olunduğu AXC-Müsavat iqtidarı başdan-başa korrupsiya içində idi. 1993-cü il mayın 25-də prezident aparatında hüquq-mühafizə orqanları rəhbərlərinin iştirakı ilə keçirilən müşavirədə Elçibəy üzünü məmurlara tutaraq deyirdi: "Rüşvət alanda milyonlarla dollar alırsınız, alırsan, heç olmasa, 100 minlərlə al...Yarım milyonunu alırsan, sonra da deyirsən ki, təqsiri yoxdur, buraxırsan, çıxır gedir".

Ali Məhkəmənin sədri Tahir Kərimlinin həmin müşavirədə dediklərini unutmaq olmaz: "Vəziyyət bütün sahələrdə ağırdır. Ağırlıq ona görədir ki, quldurluq, soyğunçuluq və rüşvətxorluq cinayətləri 10 illə müqayisədə, 1992-ci ildə 4 dəfə artıb... Bəli, rüşvətxorluq respublikanı başına alıb gedir... mən axı hakimə necə deyə bilərəm ki, milyoneri işə bərpa eləyirsən, qayıdıb mənə deyər ki, Pənah Hüseynov milyarderləri bərpa eləyir. Nazirlər Soveti bu gün milyarderlərdən ibarətdir. O adamlar ki cinayətkardır..., onlar bu gün Nazirlər Sovetinə, Dövlət Aparatına yığışıblar..."

Ə.Kərimli 1993-cü ildə Prezident Aparatında dövlət katibi olanda, həyat yoldaşı Samara Hüseynova da şöbə müdiri idi. Bir evdən Prezident Aparatına məxsus 2 maşın çıxıb bunları işə gətirir, axşam da işdən qaytarırdı. Əlbəttə ki, belə bir hakimiyyətdə ən yüksək postlardan birini tutmuş Ə.Kərimlinin indiki iqtidarı ittiham etməyə, insanları sakit və firavan yaşadığı üçün qınamağa haqqı varmı? Elə buna görə idi ki, artıq ictimaiyyət Ə.Kərimlinin yalanlarından bezib.

## Əli Kərimli heç bir halda hakimiyyətlə sövdələşməyə getdiyini dana bilməz

Hər kəs yaxşı bilir ki, Ə.Kərimli dövlət katibi komsomolçu idi. Sonradan flyuger kimi əqidəsini dəyişmiş və xalq hərəkatına qoşulmuş birisi idi. Ondan sonrakı dövrdə də bir neçə dəfə əqidəsini dəyişmişdi. Hətta 1990-cı illərin ortalarında hakimiyyətlə sıx əlaqədə, parlamentdə də təmsil olunurdu. Ancaq silahdaşları və yoldaşları onu yaxşı tanıyırlar. Ağır vaxtda öz liderinə xəyanət etmiş insan, əlbəttə ki, yüksək keyfiyyətlərə malik ola bilməz. Vaxtilə Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzov bildirmişdi ki, Ə.Kərimli, Cəmil Həsənli və AXCP rəhbərliyində təmsil olunan başqa bir neçə nəfər 2000-ci ildə parlament seçkiləri ərəfəsində "Xankəndi" restoranında YAP təmsilçiləri ilə görüşüb, deputat mandatı ətrafında sövdələşmə aparmışdı: "Həmin dövrdə Ə.Kərimli dəfələrlə Azərbaycan Respublikasının yüksək vəzifəli rəsmi şəxsləri ilə xaricdə görüşmək arzusunda olduğunu bizlərə bəyan edib. Görüş yeri kimi Strasburq və ya London seçilmişdi. Mən şəxsən bu danışıqların iştirakçısıyam və danışıqların aparıldığı yer Tofiq Bəhramov adına stadionun yanındakı "Xankəndi" restoranı idi. Ə.Kərimlinin bu əməllərinin şahidləri də var. Bu gün o insanların bir hissəsi Milli Məclisdə təmsil olunur. Cəmil Həsənli, o dövrdə AXCP-nin funksionerləri və hazırda deputat olanlardan da bilavasitə bu danışıqlarda iştirak edənlər var".

Əgər S.Novruzovun dedikləri böhtandırsa, Ə.Kərimli niyə indiyədək bunları təkzib etməyib? Çünki Ə.Kərimli qorxur ki, bu mövzuda nəsə desə, YAP təmsilçisi ortaya yeni faktlar qoyar və AXCP sədri tamamilə ifşa olunar.

## AXCP sədri bu günə qədər milyonlarla ölçülən gəlirlərinin mənbəyini açıqlamır

Yaşlı və orta nəsil Ə.Kərimlinin Elçibəyə və müxalifət düşərgəsinə dəfələrlə xəyanət etdiyini yaxşı xatırlayır, amma onun ətrafındakı sadəlövh gənclər hələ də AXCP sədrinə inanırlar. Elə bu məqamda ictimaiyyəti və həmin gəncləri də maraqlandıran bir sıra sualları da ünvanlamaq yerinə düşər. Təztez hakimiyyətin korrupsioner olduğunu iddia edən Ə.Kərimli niyə ətrafındakılara anlatmır ki, 2005-ci ildən bu yana heç yerdən maaş almadığı halda, bahalı "Mazda 9" avtomobilini, Dübəndi və Novxanıdakı 2 villanı, Bristolda Türkelin yaşadığı mənzili hansı pulla alıb? 5-6 cangüdəni nəyin hesabına saxlayır? Türkelin İngiltərənin ən bahalı universitetlərindən birindəki təhsil haqqını haradan ödəyib?

Ə.Kərimli nağıl danışırdı ki, guya həyat yoldaşına gənc mütəxəssis kimi verilmiş ikiotaqlı mənzili satıb, bütün xərclər onun hesabına ödənib. Hər bir məntiqli insan soruşar ki, ikiotaqlı mənzilin qiyməti məgər 1 milyon dollardır?

## Psevdovətənpərvərin düşmən mövqeyində duran övladı Vətən daşı ola bilməz

Ə.Kərimlinin yalan və saxtakarlıq üzərində qurduğu bu imperiya barədə insanlar düşünür, suallar ünvanlayır, lakin cavab almayınca, əks-reaksiya formalaşır. İctimaiyyətin Ə.Kərimli haqqında təsəvvürləri və fikirləri onun oğlu Türkel Kərimlini ermənilərlə birgə ABŞ-a göndərəndə, bir daha təsdiqləndi. Məhz Vaşinqtondakı dinləmələrdə Türkel Kərimli Azərbaycan hakimiyyətini tənqid edəndə, qondarma rejimin başçısı Bako Saakyanın oğlu və digər ermənilər də həmin tədbirdə iştirak edirdilər. Özünü guya vətənpərvər sayan Ə.Kərimlinin oğlu Türkel Kərimli separatçı rejimin nümayəndəsinin həmin tədbirdə iştirakına niyə etirazını bildirməmişdi? Və ya onların tədbirdə iştirakından istifadə edərək, niyə Dağlıq Qarabağ haqqında bir kəlmə də danışmamışdı? Guya siyasətə qarışmadığını iddia edən Türkel Kərimli deyə bilərmi ki, Vaşinqtondakı tədbirdə kimi və ya hansı təşkilatı təmsil edirdi? Bu, ailə tədbiri idi ki, orada fiziki şəxs olan atasını təmsil etsin? Yox əgər AXCP-ni təmsil edirdisə, niyə atasına sual vermirdi ki, partiyada başqa adamlar olduğu halda, məhz onu - "siyasətə qarışmayan" bir gənci okeanın o tayına göndərir?

Vətənə xəyanət, heç bir halda, cəmiyyətin diqqətindən yayınmaz. Ona görə də, Ə.Kərimlinin, heç bir halda, vətənpərvərlikdən, Vətən amilindən söz açmağa mənəvi haqqı çatmır.

## Əli Kərimlinin oğlu niyə mitinqlərə gəlmir?

Türkel Kərimli deyə bilərmi ki, 2-3 il əvvəl yaydakı mitinqlərin birində saxlandıqdan sonra niyə, bir dəfə də olsun, digər mitinqlərə qatılmayıb? Lap özü Bakıda olmayıbsa, anası və ya digər ailə üzvləri həmin mitinqlərə qatılıblarmı? Mitinqdə iştirak edib saxlanılmaq, işdən çıxarılmaq və ya ali məktəbdən qovulmaq yaxşıdırsa, Ə.Kərimlinin, Cəmil Həsənlinin və digər "Milli Şura" rəhbərlərinin ailə üzvləri niyə iştirak etmirlər? Pisdirsə, başqalarını niyə təkidlə aksiyaya çağırırlar? Gəlməyənləri də tənbeh edirlər. Belə çıxır ki, xaricdə gün keçirmək, kef etmək "Milli Şura" liderlərinin ailə üzvlərinin, mitinqlərə gəlmək, döyülmək, söyülmək, saxlanmaq, həbs olunmaq, əfv olunduqdan sonra da "xain damğası" vurulmaq digər gənclərin qismətinə yazılıb. Buna aid yüzlərlə nümunə var.

Niyə gənclər AXCP sədrinin fətvasına uyub, qanunsuz hərəkətlər törədərək həyatlarını puç etməlidirlər? Məgər bütün günü sosial şəbəkələrdə oturub siyasi opponentləri təhqir etmək, arabir də aksiyalara çıxıb qışqırmaq, məhz bu gənclərin alnına yazılıb? Belə işlər yaxşıdırsa, niyə Ə.Kərimlinin öz övladları həmin proseslərdə iştirak etmirlər? Pisdirsə, nəyə görə başqalarının övladları bu yola dəvət edilir? Belə çıxır ki, qara işə sadə cəbhəçilər göndərilməli, "liderlərin"in övladları isə, xaricdə gün keçirib əylənməlidirlər.

Hazırda Ə.Kərimlinin oğlu Türkel ABŞ-da, qızı Selcan isə İngiltərədədir. Cəmil Həsənlinin hər iki qızı Böyük Britaniyada yaşayır. İsa Qəmbərin oğlu İlkin Kanadada, Arif Hacılının oğlu Orxan və Hikmət Hacızadənin oğlu Adnan Amerikadadırlar. Siyahını uzatmaq da olar.

## Sosial şəbəkə istifadəçiləri Əli Kərimlini biabır etdilər: oğlun niyə hərbi xidmətdən yayınır?

Vətənpərvərliyi hər zaman bir siyasi oyun vasitəsi kimi istifadə edib dividend qazanmağa çalışan Ə.Kərimli ictimaiyyətin sərt sualları qarşısında, bir müddət öncə də, susqun qalmışdı. Sevinc Osmanqızı ilə canlı yayımda çıxış edən Ə.Kərimli hərbi xidmət məsələsindən danışıb və pafoslu şəkildə bildirib ki, hərbi xidmət vətənpərvərlik göstəricisidir. Lakin bu sözləri deyən Əli Kərimli unudub ki, oğlu Türkel Kərimli hərbi xidmətdən yayınmaq üçün ABŞ-a qaçıb. Məhz bu məqamı Ə.Kərimlinin diqqətinə çatdıran "youtube" istifadəçiləri AXCP sədrini yamanca pərt ediblər. Sual ediblər ki, nə üçün xalqa vətənpərvərlik dərsi keçən Ə.Kərimli oğlunu hərbi xidmətdən yayındırıb, xaricə qaçırıb? Niyə Prezident İlham Əliyevin oğlu Heydər Əliyev hərbi xidmətini çəkir, amma Türkel Kərimli ABŞ-da erməni lobbisinin nümayəndələri ilə əylənir?

Elə ötən dəfə "Azərbaycan saatı" kanalına zəng edən vətəndaşlardan biri Əli Kərimliyə oğlu ilə bağlı eyni sualı ünvanlasa da, ənənəvi olaraq, sualdan yayınıb, aydan, çaydan danışıb.

Yəni görünən odur ki, Əli Kərimlinin fikirləri də, sözləri də, əməlləri də saxtadır, yalandır. Artıq belə bir ictimai düşüncə formalaşır ki, Ə.Kərimli, sadəcə, oğlunu hərbi xidmətdən yayındıran və Azərbaycanı qrant naminə satan bir Vətən xainidir...

## Müxalifət daxilində belə Əli Kərimlini qəbul etmirlər

Ə.Kərimlinin saxtakar və psevdovətənpərvər olması haqqında düşüncə təkcə ictimaiyyətdə deyil, eləcə də, müxalifət düşərgəsində də formalaşıb. Məsələn, bir müddət öncə, Oyan konsulu Nahid Cəfərov yazdığı statusunda Ə.Kərimli uğursuz partiya rəhbəri kimi vəzifəsindən istefa versə, "Milli Şura" buraxılsa, "Azadlıq" qəzeti və "Turan" TV bağlansa o zaman şəxsiyyətə pərəstişlər, rüşvətxor və sənəd alverçiləri ortada olmayacaqlar.

ABŞ-da yaşayan müxalifyönlü jurnalist, "Düzdanışaq" "youtube" kanalının admini İsmayıl Cəlilov isə Ə.Kərimli və trollarını daha dərin şəkildə ifşa edib. O deyib: "2 gündür, AXCP-nin trolları kanalıma tökülüşüb. 2 gündür, ana-ata söyüşlərini ehtiva edən şərhlərini "facebook" və "youtube" səhifələrimdən pozuram. Adi bir tənqidə bu qədər söyüşlə cavab verən qrupa nə deyəsən? AXCP-nin trolları dövlətin trollarından da pis imiş. Ə.Kərimli mənim efirimə gəlmir, çünki kanalımı balaca sayır. Yaxşı, başa düşdük. Mənim 4000 izləyicim çox azdır. Amma kanalım balacadırsa və məni izləyən azdırsa, niyə sənin tərəfdarların bundan qorxur, Əli bəy? Niyə mən səhərdənaxşama qədər onların söyüşlərini təmizləməliyəm? Bunlar sənin tərəfdarlarındır. Əli bəy, birmənalı təlimat verin ki, mediaya basqı etmək olmaz, onları çəkindirin. Siz müstəqil media tərəfindən heç də rəğbət qazanmırsız.

Ardı Səh. 14

# XALQ ƏLİ KƏRİMLİYƏ NƏ ÜÇÜN ETİRAZ ETDİ? SƏBƏBLƏR CİDDİDİR...

Əvvəli Səh. 13

Özünüzə lider deyirsinizsə, liderlik edin. Mən nə "CNN" kanalı deyiləm, nə də "Osmanqızı" TV. Nədən qorxurlar sizin ardınızca gedən bu məxluqlar? Məndə qorxu yaranır ki, siz hakimiyyətə gəlsəniz, necə cəmiyyət quracaqsınız? Siz hələ müxalifətdəsiniz, görün tərəfdarlarınız nə edir? İqtidara gəlsəniz, jurnalistlərin başına nə oyun açacaqsınız? Budur sizin Azərbaycana dair gələcək vizyonunuz? Dünən sizi Sevinc Osmanqızının kanalında izlədim. Gələcək haqqında heç bir fikrinizi eşitmədim. Mən sizi artıq müstəqil və bitərəf medianın dostu saymıram. Sizi Sevinc Osmanqızı çox sorğulamır, amma mənim sizə çox sualım var. Ə.Kərimli, çıxdığınız kanalda açıqlayın, siz Azərbaycanın gələcəyini necə görürsünüz? Müstəqil mediaya qarşı bu cür alçaqcasına hərəkət edən iqtidarmı olacaqsınız? Biz də sizin üçün təhlükəyik? Mən Azərbaycanda yaşayanda, sizin partiyanıza səs vermişəm. Mən inanmırdım ki, müxalifət məni belə alçaq hərəkətlə vuracaq. Siz utanmırsız? Sizə pozitiv yanaşan adamı özünüzə qarşı yönəldirsiniz. Sizin tərəfdarlarınız özünə çoban axtaran bir sürüdür. Ə.Kərimli peyğəmbərdir ki, onu tənqid etmək olmaz? Siz özünüzə hansı haqqı tanıyırsız ki, müstəqil mediaya söz atırsız? Mən müxalifətdən belə alçaq hərəkət gözləmirdim. Heç kimdən də üzr istəmirəm. Bisavad sürüsünüz, söyüşü belə düzgün yaza bilmirsiniz. Mən sizin quracağınız Azərbaycandan qorxuram. Belə Azərbaycan istəmirəm, cəhənnəmə qədər yolunuz var".

Göründüyü kimi, Ə.Kərimli haqqında ictimaiyyətdə formalaşmış fikirlər, artıq müxalifət daxilində də yaranıb. Artıq hər kəs bilir ki, Ə.Kərimli elə 1992-ci ildəki adamdır, düşüncəsi və diktator xisləti hələ də dəyişməyib. Məhz bu və sadaladığımız səbəblər üzündən insanlar Ə.Kərimliyə inanmır, yeri gələndə, etirazları ilə öz mövqelərini ortaya qoyurlar.

## Şəhid atasının ruhunu təhqir edən Sevinc Osmanqızı

İnsanların eyni münasibəti həm də Sevinc Osmanqızına aid edilir. Azərbaycan ictimaiyyəti Osmanqızının əsil simasını və xislətini məlum səs yazısı yayıldıqdan sonra anladı. Sevinc Osmanqızının məlum səs yazısı yayıldıqdan sonra, onun Azərbaycan dövlətinə qarşı fəaliyyəti ifşa olundu. İctimaiyyət bir daha gördü ki, Sevinc Osmanqızının hər gün Azərbaycan hakimiyyətini saxta ittihamlarla tənqid etməsinin arxasında, məhz onun qrant hərisliyi dayanıb. Bütün bunlar azmış kimi, yenidən efirə çıxan Osmanın qızı özü haqqında məsum obrazı yaratmağa çalışsa da, artıq gec idi, qatar getmişdi...

Guya sadə həyat tərzi sürdüyünü iddia edən Osmanqızı bu günə qədər Floridadakı 300 min dollarlıq evi, hər gün bahalı butiklərdən alış-veriş etməsi haqqında tutarlı açıqlama verməyib. Demək ki, onun Azərbaycan hakimiyyətinə qarşı fəaliyyətinin çox güclü maliyyə qarşılığı olur.

Mütəmadi olaraq, sosial şəbəkələrdən istifadə edən insanlar, yaxşı bilirlər ki, Sevinc Osmanqızı yalan danışmağı çox yaxşı bacarır. Efirdə əzilib-büzülür, kövrəlir ki, bəlkə kimlərisə inandıra bilər. Amma hər kəs yaxşı anlayır ki, pulla olsa da, izləyici sayını artırıb, saxta 100 min rəqəmini bayram edən Sevinc Osmanqızının cəmiyyətimizdə dəstəyi yoxdur. Necə ola bilər ki, 104 min izləyicisi olan bir kanalın canlı yayımına heç 500 nəfər baxmır, like etmir? Əgər bu gün onun anti-Azərbaycan fəaliyyətinə etiraz olaraq, canlı yayımlarınızı dislayk edənlərin sayı bu gün 2-3 mindirsə, sabah 5-10 min olacaq. Çünki Osmanqızı həmin 5-10 minlərin yaşadığı Azərbaycanın əleyhinə olan planlarda yer alıb.

Sevinc Osmanqızı bu qədər yalanla, Vətəni satmaqla qrant almaq birbaşa ermənilərin vurub partlatdığı vertolyotda şəhid olan atası Osman Mirzəyevin ruhunu təhqir etmiş olur...

Bütün bunlar bir daha xalqın "Osmanqızı" TV-yə və orada canlı efirə çıxan Ə.Kərimli kimilərə qarşı birmənalı xarakter alır. Artıq ictimaiyyət nə Kərimliyə, nə də Osmanqızına inanır. Ona görə də, kütləvi virtual etiraz onu göstərir ki, adları çəkilən Vətən xainləri bundan sonra da insanlar tərəfindən qəbul edilməyəcəklər...

***"Səs" Analitik Qrupu***



# Nə haqdan, nə də xalqdan qaçmaq olmaz...

**RƏFİQƏ**

Həqiqətən də, bu, reallıqdır: nə haqdan, nə də xalqdan qaçmaq olmaz. Haqq da, tarix də budur ki, baş verənləri unutmaq olmaz. Bir də nə yaxşı ki, tarixi və qələbələr dolu günlərimiz var. Bu tarixi günlərdən də künc-bucaqda eşələnə-eşələnə qalan dağıdıcı müxalifət ünsürləri əllərinə düşən bu girəvədən istifadə edərək, başlayırlar "xalq dərdi" çəkən kimi özlərini göstərməyə. Təəccüblü də deyil. Bu, o abırsızlardır ki, mitinq çağırışı etməklə, Azərbaycanın uğurlu inkişafını həzm edə bilmirlər. Soruşmaq lazımdır, ay abırsız və satqın Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı... və ermənin qabağında, qəpik-quruşa görə hər şeylərini satan xainlər, həmin tarixi günlərdə unudulmayan o qədər ləkəli keçmişiniz var ki!

Sosial şəbəkənin zombiləşmiş qaragüruhçu dəstəsinə "rəhbərlik" edən AXCP sədri Ə.Kərimli, görünür, AXC-Müsavatın bir illik ləkəli dövründə etdikləri cinayətləri unudub. Ancaq Azərbaycan xalqı unutmayıb və bu gün həyasızcasına yenidən ortaya atılaraq, ölkədə aparılan uğurlu siyasəti, inkişafı tənqid edib, böhtan yağdırmaqla, hər kəsi ittiham etməklə, özlərini ictimai rəyə demokratik düşərgənin "əsas güc" mərkəzi kimi sırımağa çalışmaqla, heç nəyi sübuta yetirə bilməyəcəksiniz. Çünki tarix nə Ə.Kərimli kimi əxlaqsızın və onun müdafiəçilərinin kimliyini unutmayıb və unutmur. Satqınlıq tarixən əxlaqın və mənəvi prinsiplərin aşınmasının göstəricisi kimi dəyərləndirilib. Naturasında xəyanət olan Ə.Kərimli kimi parazitlər üçün satqınlıq etmək adi bir şey olub. Məhz bunun nəticəsidir ki, ağlı başında, əqidəsi bütöv olan heç kim satqınları sevməyib. Satqınlara yalnız satqınlar dəstək veriblər.

Göründüyü kimi, əlavə şərhə ehtiyac yoxdur, Ə.Kərimli. Çünki tarix və onun canlı şahidləri heç nəyi və heç kimi unutmur. Necə deyərlər, hər şey elin gözü qabağındadır. Ən böyük tərəzi də, məhz odur.

# İnternet trollarının yeni bəd əməlləri üzə çıxır

*Qurban Məmmədovun, Vidadi İsgəndərlinin, Orduxan Teymurxanın erməni lobbisi ilə iş birliyində olmalarına dair yeni faktlar yayılıb*

***Son vaxtlar diqqətçəkən reallıq ondan ibarətdir ki, Azərbaycanın milli və dövlətçilik maraqlarına qarşı hər cür qarayaxma kampaniyası aparan xaricdəki "söyüş qrupu" və daxildəki ələbaxım funksiyasını yerinə yetirən satqın və xəyanətkar müxalifət sosial şəbəkələrdəki şər və böhtan kampaniyalarını genişləndiriblər. Bu isə, onu deməyə əsas verir ki, xarici maraqlı məkrli dairələr onlara xüsusi tapşırıqlar veriblər. Məhz bu tapşırıqların nəticəsidir ki, xaricdəki "söyüş qrupu"nun üzvləri olan Qurban Məmmədov, Vidadi İsgəndərli, Tural Sadıqlı, Orduxan Teymurxan, Məhəmməd Mirzəli və digərləri video-paylaşmalarında erməni bosslarından sitatlar gətirib və aforizmlər paylaşırlar. Hətta AXCP sədri Əli Kərimli bir qədər də dərinə gedərək, erməni cəmiyyətini, onun baş nazirinin ünvanına mədhiyyələr söyləyir, Ermənistanın "demokratik" bir dövlət olduğunu bildirir. Yəni utanıb- çəkinmədən erməni lobbisinə xidmət etdiklərini nümayiş etdirirlər. Təbii ki, qarşılığında erməni təşkilatlarından maliyyə yardımları alırlar.***

## Müxalifət qaranlıq otaqda birə tutmağa cəhd edir

Əldə etdikləri maliyyə vəsaiti hesabına, milli və dövlətçilik maraqlarını satmaqla əldə etdikləri qrantlar hesabına xarici ölkələrdə mülklər alır, övladlarını müxtəlif xarici ölkələrin təhsil ocaqlarında oxudururlar. Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı və digərləri populist açıqlamalar, bəyanatlar verməklə



yanaşı, mitinqlər keçirməyə və bununla da, xarici ağalarının diqqət mərkəzinə çevrilməyə də cəhdlər göstərirlər. Halbuki bu məxluqlar aksiyaların onların istək və arzularına uyğun baş tutmadığını başa düşürlər və dərk edirlər ki, cəmiyyət onları qəbul etmir, bu səbəbdən də, mitinqlər iflasa uğrayır. Siyasi analitiklər isə, o fikirdədir ki, aksiyaların hansı rüsvayçılıqla nəticələnməsinə baxmayaraq, bu müxalif başbilənlərini narahat etmir. Demək olmaz ki, müxalifət liderləri acı taleləri ilə barışırlar. Əsla, barışmazlar. Onlar üçün başlıca münasibətlər qrant aldıqları xarici təşkilatların və erməni lobbisinin dəyəridir. "Turan" TV, "Meydan" TV "Azərbaycan saatı" kimi təbliğat maşınları bu mənəviyyatsızlar üçün xəyanət tribunası rolunu oynamaqla, çirkin fəaliyyətlərini təbliğ edirlər. Erməni lobbisi ilə illərdən bəri əməkdaşlıq edən, Leyla və Arif Yunuslar, Qurban Məmmədov, Xədicə İsmayıl, Ələkrəm Hümmətov, Qənimət Zahid, Orduxan Teymurxan, Vidadi İsgəndərli, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Azər Kazımzadə və digərləri də dağıdıcı xisləli müxaliflərə şər və böhtan kampaniyasının aparılmasında öz xislətlərinə uyğun dəstək nümayiş etdirirlər. Xaricdə mühacir həyatı yaşayan "Söyüş qrupu" Azərbaycanın iqtisadi inkişafına, diplomatik uğurlarına qara yaxan bələləri saxtakarlığa üstünlük verərək, gerçəyi gizlədir və özlərini demokratiya tərəfdarları hesab edirlər. Əslində isə, sığındıqları Avropa ölkələrində belə qəbul olunmayan, yalnız Azərbaycana qarşı qara piarlarda vasitə kimi istifadə edilən bu satqınların yaşadığı yer elə çirkinliklərinin təqdim olunduğu iaşə obyektləri, avtobus dayanacaqları və tualetlərdir. Necə deyərlər, mikrob elə murdar yerdə qol-qanad açar. Cəbrayıl rayonunda göz açmış O.Teymurxan indi arvadının vətəni olan Niderlanddan, milli şərəf hissini itirərək, bütün dünyaya car çəkir ki, ermənilər işğal altında olan Cəbrayılda bir dənə də olsun tarixi-mədəni abidəmizi, o cümlədən, qəbirlərimizi dağıtmayıblar.

## "Söyüş qrupu"nun üzvlərinə erməni deyilsə, daha münasib olar

Zənnimizcə, bu satqın mövqeyindən sonra Orduxanın xarici erməni diaspor və lobbi mərkəzlərinin əlində oyuncaq-alət olduğunu, xüsusi olaraq, isbat etməyə heç bir lüzum qalmır. Eyni zamanda, onun Cəbrayıl camaatının adından vəkillik etməyə heç bir haqqı yoxdur. O, satıldığı andan bu haqqı ömürlük itirib, eləcə də, Q.Məmmədov və V.İsgəndərli. Bu hər iki simasız və varlıqlarını tamamilə itirmiş məxluqlar Azərbaycan adından danışmağa haqları yoxdur. Baxmayaraq ki, hər fürsətdə azərbaycanlı adından çıxışlar edib, Azərbaycan dövlətinin vətəndaşı olmalarını bəyan edirlər. Reallıqda isə, ermənidən də betər ermənidirlər. Sosial şəbəkələr vasitəsi ilə erməni qucağında daha rahat oturmağa çalışan "söyüş qrupu"nun üzvləri öz layiq olduqları cəzanı alacaqları şübhəsizdir. Çünki cinayət və bəd əməl cəzasız qala bilməz. Belə halların davam etməsi, cəmiyyət üçün faciələr yarada bilər. Bu baxımdan, internet trollarının ədəbsiz fəaliyyətlərinə son qoyulmasına az qalıb. Digər tərəfdən, "Facebook" sosial şəbəkəsində, zorakılıq təbliğ edən, terrora çağırış olan saxta profillərin bağlanması barədə də qərar verilib. Bu isə, o deməkdir ki, Ə.Kərimli, A.Hacılı, Leyla və Arif Yunuslar, Qurban Məmmədov, Xədicə İsmayıl, Ələkrəm Hümmətov, Qənimət Zahid, Orduxan Teymurxan, Vidadi İsgəndərli, Tural Sadıqlı, Məhəmməd Mirzəli və Azər Kazımzadə sosial şəbəkələr üzərində saxta profillər açaraq terroru, zorakılığı təbliğ edə, insanları iğtişaşlara çağıra bilməyəcəklər.

***İ.ƏLİYEV***

# "İnsan haqları və azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyası Azərbaycan qanunvericiliyində

***2001-ci il dekabrın 25-də Azərbaycan Respublikasının "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının və onun 1, 4, 6, və 7 saylı protokollarını ratifikasiya etməsi Ümummilli Lider Heydər Əliyevin ölkə vətəndaşlarının hüquq və azadlıqlarının təmin edilməsinə yönəlmiş strateji kursunun növbəti təzahürü idi. Ölkəmiz sözügedən Konvensiyaya qoşulmaqla insan hüquqları üzrə Avropa Məhkəməsinin yurisdiksiyasına daxil olurdu. Beləliklə, qabaqcıl Avropa ölkələrinin on illər ərzində qət etdiyi yolu Azərbaycan Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında cəmi bir ilə keçmişdi.***

Arayış üçün qeyd edərdik ki, sözügedən Konvensiya 1950-ci il noyabrın 4-də Romada Aropa Şurasına daxil olan dövlətlər tərəfindən imzalanmış və 1953-cü ilin sentyabrından qüvvəyə minmişdir. Sonrakı illərdə Konvensiyanın bir sıra müddəaları müvafiq protokollarla inkişaf etdirilmişdir.

A.Şəfixanlı yazır: "Konvensiyanın əsasında səmərəli nəzarət mexanizmi fəaliyyət göstərir. Bu mexanizmlərə əsaslanan iştirakçı dövlətlər, Konvensiyaya və onun əsasında formalaşan presedent hüququna söykənərək bir tərəfdən, milli qanunvericiliyi, digər tərəfdən isə, dövlət-hüquq təsisatlarının fəaliyyətini təkmilləşdirmək imkanı əldə edir. Konvensiyanın milli-hüquq institutlarına təsiri daimi xarakter daşıyır və Ümumavropa inteqrasiya prosesində özünü büruzə verir. Azərbaycan Respublikasının qanunvericiliyi ilə Avropa Konvensiyasının qarşılıqlı əlaqələri və qarşılıqlı təsiri buna əyani sübutdur."

Konvensiyada təsbit olunmuş, demək oiar ki, bütün hüquq və azadlıqlar, habelə, ayrı-seçkiliyin bütün növlərinin qadağan olunması kimi məsələlər Heydər Əliyevin hüquqi dövlət quruculuğu strategiyasının uğurla həyata keçirilməsi sayəsində, artıq bu sənəd imzalanana kimi, ölkə qanunvericiliyində, ilk növbədə də, konstitusiyada və müvafiq məsələlərdə öz əksini tapmışdı.

Azərbaycan rəhbərliyi, sadəcə, Konvensiyanın ratifikasiyası ilə kifayətlənməmiş, onun müddəalarının konkret qanunvericilik aktı ilə təsbit edilməsini maqsədəuyğun saymışdı. 2002-ci il dekabrın 24-də ölkə Prezidenti Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında'' Konstitusiya Qanunu Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsini, bəhs edilən Konvensiyaya uyğunlaşdırmaq məqsədi daşıyırdı. Bu qanunun ilk maddəsi təsbit edirdi ki, "Azərbaycan Respublikası Konstitusiyasının və bu Konstitusiya Qanununun heç bir müddəası dövlət orqanları, təşkilatlar və ya ayrı-ayrı şəxslər tərəfindən insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə və ya Azərbaycan Respublikası Konstitusiyasında və bu Konstitusiya Qanununda nəzərdə tutulduğundan daha artıq dərəcədə məhdudlaşdırılmasına yönəlmiş fəaliyyət və ya hərəkətlər üçün hüquqi əsas yaradan müddəa kimi şərh edilə və ya başa düşülə bilməz". İnsan hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yalnız qismən və müstəsna hallarda, müəyyən hüquqi çərçivəyə uyğun icazə verilirdi.

S.Abbasova yazır: "Azərbaycanda hüquqi dövlətin konstitusion əsaslarının təkmilləşdirilməsi prosesində 2002-ci il avqustun 24-də keçirilmiş və sentyabrın 19-da qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktı mühüm hadisə oldu. Referendumla konstitusiyanın 24 maddəsinə 39 dəyişiklik edilmişdi. Bu əlavə və dəyişikliklər, ilk növbədə, Ümummilli Lider Heydər Əliyevin ölkənin hüquq sisteminin təkmilləşdirilməsinə, vətəndaş cəmiyyəti quruculuğuna daha münbit şərait yaradılmasına, insan hüquqlarının müdafiəsi mexanizmlərinin səmərələşdirilməsinə yönəlmiş strategiyasının nailiyyətlərindən idi.

Azərbaycan Respublikasının Konstitusiyasında edilmiş dəyişikliklər nəticəsində və konstitusiyasının 130-cu maddəsinin V, VI və VII bölmələrinə, müvafiq olaraq, hər kəs onun hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarından, bələdiyyə və məhkəmə aktlarından qanunla müəyyən edilmiş qaydada bu maddənin III hissəsinin 1-7-ci bəndlərində göstərilən məsələlərin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən həll edilməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin pozulmuş insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədi ilə şikayət verə bilər."

Ölkəmizdə aparılan hüquqi islahatların mühüm komponenti kimi, dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxslər tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi məqsədi ilə Azərbaycanda qeyri-məhkəmə müdafiə mexanizmi insan hüquqları üzrə Müvəkkil (Ombudsman) institutu yaradıldı. Bəlli olduğu kimi, 2001-ci il dekabrın 28-də "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu qəbul edildi. Bu akt, Konstitusiya Qanunu qismində dövlətin ali qanunvericiliyinə onun ayrılmaz hissəsi kimi daxil edilmiş, bununla da, insan hüquqlarının qorunmasının dövlətin siyasətində həlledici rola malik olduğu bir daha təsdiqlənmişdi. Qanun Ombudsmana hüquqi dövlət qurucutuğunda və hüquqi dövlətin təməl prinsiplərinin qorunması sahəsində geniş səlahiyyətlər verirdi.

5 mart 2002-ci ildə ölkə Prezidenti Heydər Əliyev "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiq edilməsi haqqında Fərman imzaladı. Həmin Fərmanda Azərbaycan Respublikasının Nazirlər Kabinetinə qüvvədə olan qanunvericilik aktlarının sözügedən qanuna uyğunlaşdırılması barədə təkliflər hazırlamaq və digər məsələlər tapşırılırdı. 2 iyul 2002-ci il tarixdə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə qanun qəbul edildi. Elə həmin gün kimya elmləri doktoru, professor Elmira Teymur qızı Süleymanova respublikamızın ilk Ombudsmanı seçildi. E.Süleymanova Azərbaycanda vətəndaş cəmiyyətinin fəal iştirakçılarındandır. O, 1980-ci ildən respublika qadın hərəkatının ön sıralarındadır. 1994-cü ildə Azərbaycan Qadın və İnkişaf Mərkəzini yaratmış və uzun müddət ona rəhbərlik etmişdir. Bu barədə VI fəsildə daha ətraflı məlumat verəcəyik. Burada isə, onu qeyd edərdik ki, E.Süleymanova ictimai və qadın problemləri üzrə 12 Ümumdünya və regional təşkilatın üzvüdür. O, 30-dan artıq beynəlxalq konfransda, o cümlədən, BMT-nin qadın problemləri üzrə 20-dən çox konfransında, 7 neftkimya va 5 aroma-simpoziumda iştirakçı olmuş və məruzələrlə çıxış etmişdir.

S.Abbasovanın fikrincə, Azərbaycanın İnsan Hüquqları üzrə ilk Müvəkkilinin öz intellekti və vətəndaş mövqeyi ilə seçilən qadın hərəkatının fəallarından birinin seçilməsi özlüyündə əlamətdar hadisə idi. Əvvəla, Ulu Öndər Heydər Əliyevin başçılıq etdiyi Azərbaycan rəhbərliyinin ölkəmizin strateji inkişaf vektoruna birbaşa aidiyyatı olan insan hüquqlarının müdafiəsi üzrə məsuliyyətli bir sahəni vətəndaş cəmiyyəti quruculuğunda geniş təcrübəsi olan ziyalı qadına həvalə etməsi, bu prosesə verdiyi önəmin miqyasını nümayiş etdirdi. İkincisi, bu vəzifəyə, məhz qadın hərəkatının öncüllərindən birinin irəli çəkilməsi ölkəmizdə yeni siyasi və hüquqi gerçəkliyin formalaşmasında, sistem transformasiyalarında Azərbaycan qadınının rolunun və təsir imkanlarının genişləndirilməsinə yönəlmiş kursun növbəti uğuru idi.

Belə bir məqam da vurğulanmalıdır ki, Ombudsman İnstitutunun təsis edilməsi bütün sahələrdə qadınların insan hüquqlarının və əsas azadlıqları kişilərlə bərabər əsasda həyata keçirməsi və onlardan istifadə etmələrinə dair iştirakçı-dövlətlər tərəfindən təminatların qəbul edilməsi haqqında "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyanın 3-cü maddəsinə də müvafiq idi.

Demokratik-hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunda qarşıda duran ən mühüm vəzifələrdən biri də İnsan Hüquqları üzrə Müvəkkilin əhali üçün əlçatan olmasını təmin etməkdir. Bu məqsədlə 2003-cü ilin iyun ayında Quba, Şəkidə və Cəlilabadda İnsan Hüquqları üzrə Müvəkkilin regional mərkəzləri açılmış və o, səmərəli fəaliyyətə başlamışdı.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Birbaşa demokratiyanın ən uğurlu modellərindən olan yerli özünüidarəetmə institutunun yaradılması da, məhz Ulu Öndər Heydər Əliyevin adi və titanik siyasi fəaliyyəti ilə əlaqədardır. Belə ki, 2 iyul 1999-cu il tarixdə "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Həmin tarixdə, eyni zamanda, "Bələdiyyələrə seçkilərin qaydaları haqqında" qanun da qəbul olundu. Bu da, vətəndaş cəmiyyətinin formalaşması sahəsində mühüm addım oldu.

Ulu Öndərin rəhbərliyi altında hüquqi dövlət quruculuğunun əsas nailiyyətlərindən biri vətəndaş cəmiyyətinin əsas təsisatlarının - siyasi partiyaların, ictimai təşkilatların, kütləvi informasiya vasitələrinin sərbəst surətdə yaradılması və fəaliyyətə başlaması da (2 iyul 2001-ci il), bu baxımdan əhəmiyyətli idi. Qanunun məşğulluq sahəsində dövlət siyasətinin təməl prinsiplərini təsbit edən 6-cı maddəsində kişi və qadınların ixtisas seçimində bərabər hüquqlar nəzərdə tutulur. "Sosial müdafiəyə xüsusi ehtiyacı olan vətəndaşların məşğulluğu üçün əlavə təminatlar" adlanan 9-cu maddənin birinci bəndinə əsasən, dövlət iş tapmaqda çətinlik çəkən və sosiaf müdafiəyə ehtiyacı olan vətəndaşlara, o cümlədən, çoxuşaqlı valideynlərə, yetkinlik yaşına çatmamış uşağı olanlara və əlil uşaq böyüdən qadınlara əlavə iş yerləri və ixtisaslaşdırılmış müəssisələr, təşkilatlar yaratmaq yolu ilə, xüsusi proqramlar üzrə təlim təşkil etməklə və başqa təlimlər görməklə, əlavə təminatlar verirdi. Həmçinin, sözügedən kateqoriyadan olan vətəndaşlar üçün işəgötürmə kvotaları müəyyən edilirdi.

Bəhs edilən dövrdə ölkədə müxtəlif sosial kateqoriyalar, o cümlədən, qadınlar üçün müavinətlər sistemi fəaliyyət göstərirdi. Qadınlar üçün hamiləlik və doğuşa görə, üç yaşına kimi uşağa baxmağa görə, xəstə uşağa qulluq etməyə görə və s. müavinətlər mövcud idi. 2002-ci ildə bütün növ ailə müavinətlərinin ödənilməsinə o dövrün məzənnəsi ilə 190,8 milyard manat dövlət vəsaiti xərclənmişdi ki, bu da, 1995-ci ildə analoji məqsədlər üçün sərf olunmuş vəsaitdən 3,6 dəfə çox idi.

Bəhs etdiyimiz dövrdə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən qadın siyasəti, əldə edilmiş nailiyyətlər, habelə, qarşıda duran problemlər "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiya üzrə BMT-nin müvafiq Komitəsinə təqdim olunmuş məruzədə də öz ifadəsini tapmışdır. 2004-cü il yanvarın 17-də Azərbaycan Respublikası hökuməti Qadın Problemləri üzrə Dövlət Komitəsinə məlum Konvensiya üzrə ikinci və üçüncü (birləşmiş) məruzəni hazırlamağı tapşırdı. Bu məruzə 1996-2004-cü illəri əhatə edirdi və GEDAV Komitəsinin rəhbər prinsiplərinə uyğun hazırlanmışdı.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

səs



## YAP Qobustan rayon təşkilatının gənclər birliyi orduya dəstək aksiyasına qoşulub



YAP Qobustan rayon təşkilatı Azərbaycan Respublikasının Baş nazirinin müavini, YAP İcra katibi Əli Əhmədovun çağırışına qoşularaq, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməkliyi məqsədilə aksiya keçirib. Aksiya zamanı YAP Qobustan rayon təşkilatının kollektivi banka gedərək, Silahlı Qüvvələrə Yardım Fondunun hesabına maddi dəstək göstərib. YAP Qobustan rayon təşkilatının sədri Füzuli Güləliyev bildirib ki, ordu xalqın qürur mənbəyi və onun müdafiəsinin təminatçısıdır: "Azərbaycan Ordusu öz qüdrətilə hər zaman öndədir. Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu istiqamətində açdığı yol ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Silahlı Qüvvələrimiz yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu inkişafa, az da olsa, hər birimizin dəstək olması qüdrətli Azərbaycanın birliyinin göstəricisidir. Bu dəstək bütün hərbi hissələrin müasir standartlara uyğun qurulmasında, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılmasında, ordumuzun müasir silahlarla təmin edilməsi kimi görülən mühüm işlərdə, hər bir azərbaycanlının dayağı və qayğısı deməkdir. Onlar bizim sabit yaşayışımızın təminatçılarıdır". Qeyd edək ki, Silahlı Qüvvələrə Yardım Fonduna dəstək aksiyasına YAP Qobustan rayon təşkilatının ərazi ilk partiya təşkilatları da qoşulub və vurğulanıb ki, bu aksiyaya qoşulmaq Azərbaycanın hər bir vətəndaşını bir olmağa Silahlı Qüvvələrə dəstək olmağa səsləyir. Aksiya davam edir.

***Rəfiqə HÜSEYNOVA***

## *Bakıda "Olimpiya ümidləri" beynəlxalq karate turniri keçiriləcək*

Azərbaycanın Milli Qəhrəmanı, tankçı Albert Aqarunovun anadan olmasının 50 illik yubileyi münasibətilə sentyabrın 27-29-da "Olimpiya ümidləri" adlı ənənəvi beynəlxalq karate turniri keçiriləcək. Azərbaycan Milli Karate Federasiyasından AZƏRTAC-a bildiriblər ki, yarışda 6-13 yaşlı uşaqlar mübarizə aparacaqlar. Gənclər və İdman Nazirliyinin, Azərbaycan Karate-Do Federasiyaları Assosiasiyasının və Azərbaycan Milli Karate Federasiyasının birgə təşkil edəcəyi beynəlxalq xatirə turniri "Sərhədçi" İdman Olimpiya Mərkəzində baş tutacaq. Sentyabrın 21-də turnirin təntənəli açılış mərasimi olacaq. Xatirə turnirinə beynəlxalq hakimlər də dəvət ediləcəklər. Yarışda 10-dan artıq ölkədən idmançıların iştirakı gözlənilir. "Olimpiya ümidləri" turnirindən bir gün əvvəl Azərbaycanın tanınmış karateçilərinin rəhbərliyi ilə seminarın təşkili nəzərdə tutulub.

## *Azərbaycan şahmatçısı "Paraçin 2019" turnirində liderliyini davam etdirir*

Azərbaycan şahmatçıları Serbiyada keçirilən "Paraçin 2019" Open A turnirində liderliyini davam etdirir. AZƏRTAC xəbər verir ki, altı turun nəticəsinə görə 5,5 xal toplayan təmsilçimiz Nail Bəşirli turnir cədvəlinin ilk pilləsində qərarlaşıb. Digər şahmatçılarımızdan Abdulla Qədimbəyli 4,5, Vüqar Əsədli 4, Mustafa Məmmədov isə 3,5 xal toplayıblar. Yarışda 32 ölkədən 166 şahmatçı iştirak edir. Doqquz turdan ibarət turnir İsveçrə sistemi üzrə keçirilir.


### ELAN

Bakı şəhəri B.Bağırov küç, ev 7, mənzil 5 ünvanında yaşayan Şahbarov Azər Aydın oğlu ilə "Uğur" fərdi firması arasında 27.11.2006-cı il tarixdə bağlanmış 713 saylı müqavilənin əsli itdiyi üçün etibarsız sayılır.

***

Naxçıvan MR, Culfa rayonu, Əbrəqunus kəndi sakini Məmmədov Şahin Sabir oğlu ilə "Uğur" fərdi firması arasında bağlanmış 8 noyabr 2006-cı il tarixli Bakı Xətai rayonu, X.Məmmədov küç, 2944-cü məhəllədə yerləşən 38 saylı mənzilin alqı-satqı müqaviləsi itdiyi üçün etibarsız sayılır.


# 11 İyul Ümumdünya Əhali Günüdür

## *Bu gün, dünya ölkələrində olduğu kimi, Azərbaycanda da qeyd olunur*

Bu gün Ümumdünya Əhali Günüdür. Bu əlamətdar tarixi 1989-cu ildə BMT-nin əhali problemlərinin həllinə yardım göstərən ən iri beynəlxalq təşkilatı olan Əhali Fondu təsis edib. Bu günün qeyd olunmasında məqsəd ailə planlaşdırılmasının əhəmiyyəti, gender bərabərliyi, yoxsulluq, qadın sağlamlığı və insan hüquqları kimi dünya əhalisi ilə bağlı müxtəlif məsələlər barədə məlumatlılığı artırmaq, insanların problemlərinə xüsusi diqqət yetirmək və ümumi inkişafa nail olmaqdır.




Son açıqlamalara əsasən, dünya əhalisinin sayı 7,5 milyard nəfəri ötüb. Əhalisinin sayına görə, ilk üç yerdə Çin, Hindistan və ABŞ qərarlaşıb. Dünya əhalisinin sayı 1804-cü ildə - 1 milyard, 1927-ci ildə - 2 milyard, 1999-cu ildə - 6 milyard olub. Demoqrafların hesablamalarına görə, dünya əhalisi bu sürətlə artmaqda davam etsə, 2040-də dünyamızda 10 mlrd. insan yaşayacaq.

Dünya Əhali Günü, bir çox dünya ölkələrində olduğu kimi, 2005-ci ildən etibarən Azərbaycanda da geniş şəkildə qeyd olunmağa başlanılıb. Ölkəmizdə də bu cür tədbirlər diqqət mərkəzindədir. Azərbaycanda MDB məkanında, ilk dəfə olaraq, elmi əsaslarla işlənilib, demoqrafiya sahəsində dövlət strategiyasını müəyyən edən "Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası" təsdiq edilib.

### DEMOQRAFİYA SAHƏSİNDƏKİ SİYASƏT DÖVLƏTİMİZİN SOSİAL SİYASƏTİNİN MÜHÜM VƏ BAŞLICA TƏRKİB HİSSƏSİDİR

Dünya əhalisinin demoqrafiyası heç bir tarixi dövrdə sabit qalmamış, hər zaman dəyişikliyə məruz qalmışdır. Azərbaycanda son illər baş vermiş həm siyasi, həm də sosial-iqtisadi dəyişikliklər demoqrafik inkişafa ciddi təsirini göstərib. Demoqrafiya sahəsindəki siyasət dövlətimizin sosial siyasətinin mühüm və başlıca tərkib hissəsi olmaqla, onun əsasını təşkil edir. Demoqrafik proseslər cəmiyyətin həyatının bir çox tərəfləri ilə qarşılıqlı surətdə bağlı olduğundan, bu əlaqə sosial-iqtisadi hadisələrin demoqrafik proseslərə və öz növbəsində, demoqrafik proseslərin də sosial-iqtisadi hadisələrə təsirinin təzahürüdür. Müasir dövrümüzdə insan inkişafının demoqrafik aspektləri bir sıra amilləri özündə cəmləşdirir. Belə ki, ölkəmizdə ölüm səviyyəsinin azaldılması, əhalinin sağlamlığının və həyatının yaxşılaşdırılması hesabına uzunömürlülük, nikah və boşanma proseslərinin, bütünlükdə, cəmiyyətin və ayrılıqda hər bir ailənin mənafeyinə uyğun tərzdə nizamlanması, ictimai tərəqqinin həm yaxın, həm də uzaq gələcəyə perspektivləri nəzərə alınmaqla, miqrasiya proseslərinin tənzimlənməsi və digər amillər ölkəmizdə demoqrafiyanın inkişafına təsirsiz ötüşməyib. Təbii ki, demoqrafiya sahəsində dövlət siyasətinin əsas prinsipləri kimi, ekoloji cəhətdən təhlükəsiz və sabit iqtisadi inkişafın təmin edilməsi də qeyd olunan amillər sırasındadır.

### ÖLKƏMİZDƏ DAYANIQLI SOSİAL-İQTİSADİ TƏRƏQQİ, SOSİAL SİYASƏT DAVAMLI XARAKTER ALMAQLA DEMOQRAFİK İNKİŞAFA TƏKAN VERİR

Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu islahatlar kursu ölkəmizdə dayanıqlı inkişafın təmin olunmasına imkan yaratmaqla bərabər və demoqrafiya sahəsində müsbət meyilləri də stimullaşdırıb. Bunun real təzahürü ölkə əhalisinin sabit artım tempinin davam etdirilməsində aydın şəkildə özünü göstərir. Əhalisinin sayı hər il, sabit şəkildə artaraq, 10 milyona çatan ölkəmizdə dayanıqlı sosial-iqtisadi tərəqqi, sosial siyasət davamlı xarakter almaqla, demoqrafik inkişafa təkan verir. Prezident İlham Əliyevin müdrik və uzaqgörən rəhbərliyi ilə Azərbaycanda iqtisadi inkişaf, sabitlik və əhalinin sosial rifahının yaxşılaşması istiqamətində görülən böyük işlərin nəticəsidir. Aparılan sosial-iqtisadi siyasətin əsas uğurlarından biri kimi, dayanıqlı inkişaf şəraitində Azərbaycanda müsbət demoqrafik şərait bərqərar olub. Azərbaycan, bir çox sahələrdə olduğu kimi, bu baxımdan da, nümunəvi ölkədir. Son vaxtlar, xüsusən, bu ilin ilk aylarında Prezident İlham Əliyevin sosial sahədə inqilabi dəyişikliklər kimi qiymətləndirilən və hətta dünyanın inkişaf etmiş ölkələri üçün nümunə ola biləcək islahatları əhalinin rifah halının daha da yüksəldilməsinə böyük təkan verir. Sürətli inkişaf, sosial rifahın daha da yaxşılaşması istiqamətində həyata keçirilən ardıcıl tədbirlər Azərbaycanda əhalinin artım tempinin qorunub- saxlanmasına əminlik yaradır. Prezident İlham Əliyevin sosial-iqtisadi inkişaf strategiyası nəticəsində, bütün sahələrdə mühüm tarixi nailiyyətlərə imza atan, iqtisadi qüdrətini artıran, sabitlik, təhlükəsizlik, əmin-amanlıq məkanı olan ölkəmizdə sosial rifah səviyyəsinin də, davamlı olaraq, yaxşılaşması özünü göstərir. Bu amillər isə, demoqrafik inkişaf üçün vacib şərtlər sırasındadır.

Azərbaycanda hər il doğulanların sayı artır, misal üçün, 2018-ci ildə ölkədə 139 min doğulmuş körpə qeydə alınıb. Ölkəmizdə doğulanların sayı ölənlərin sayını 2-2,5 dəfə üstələyir. Əhalinin artımı qarşısında genişmiqyaslı tədbirlər görülür, yeni uşaq bağçaları və məktəblər, müalicə müəssisələri və idman kompleksləri istifadəyə verilir.

Bununla yanaşı, dövlət başçısının 2018-ci il 30 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" da mövcud demoqrafik meyillərə və inkişaf perspektivlərinə, ölkənin müəyyən olunmuş iqtisadi prioritetlərinə əsaslanmaqla, səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş uzunmüddətli dövlət məşğulluq siyasətini müəyyən edir.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyev ölkədə sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlişini prioritet məsələ hesab edir və ölkəmizdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir.

***Nəzakət ƏLƏDDİNQIZI***


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600